HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 21 (863) ■ 7 iyun 2017 www.vergiler.az Qiymәti: 60 qəp.

# Azərbaycanın enerji və iqtisadi potensialı günü-gündən güclənir

İyunun 1-də «Şahdəniz Mərhələ 2» üçün inşa olunan iki platformadan birinin - yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki «Şahdəniz» müqavilə sahəsinə yolasalma mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.



Dövlətimizin başçısına bildirilib ki, «Şahdəniz 2», «Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi», TANAP və TAP layihələrinin daxil olduğu Cənub Qaz Dəhlizi dünyanın ən böyük enerji layihələrindən biridir. BP-nin operatorluğu ilə həyata keçirilən bu layihələr artıq tamamlanmaq üzrədir və ilk qazın gələn ilə planlaşdırılan nəqli üçün qrafikə uyğun işlər davam etdirilir. Həmin layihələrin 92 faizdən çox hissəsi tamamlanıb, ümumi dəyəri 13 milyard dollar həcmində olan iri müqavilələr imzalanıb. İndiyədək layihələrdə iştirak edən ölkələrdə 40 min yeni iş yeri açılıb. «Şahdəniz» yatağı üzrə hesablanmış bütün ilkin geoloji qaz ehtiyatı təxminən 1 trilyon kubmetrdən çoxdur. «Şahdəniz Mərhələ 1» çərçivəsində illik hasilat 10 milyard kubmetr qaz və təxminən gündə 50 min barel kondensat təşkil edir və hasil olunan qaz Gürcüstana və Türkiyəyə nəql edilir. «Mərhələ 2» çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barelədək kondensat əlavə etməklə hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Bu layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə, 10 milyard kubmetr qaz isə Avropa alıcılarına çatdırılacaq.

«Şahdəniz Mərhələ 2» layihəsi çərçivəsində Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliyadakı milyonlarla istehlakçıya ildə 16 milyard kubmetr qaz nəql edilməsi nəzərdə tutulur. İlk qazın nəqli Gürcüstan və Türkiyəyə gələn il, Avropaya isə 2020-ci ildə gözlənilir. Hasilatın Pay Bölgüsü haqqında Sazişin 2036-cı ildən 2048-ci illədək uzadılması «Şahdəniz» yatağının dərin qatlarındakı ehtiyatların gələcəkdə işlənilməsi üçün yol açır. Azərbaycan və Gürcüstan ərazilərində boru kəməri marşrutu boyunca «Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi» layihəsinin tikinti işləri qrafikə uyğun davam edir. Ümumilikdə, tikinti işlərinin və istismaravermə sınaqlarının 89 faizi artıq tamamlanıb. Boru kəmərinin hidro-sınaq işləri həm Azərbaycanda, həm də Gürcüstanda davam edir.

Prezident İlham Əliyevə məlumat verilib ki, dənizə yola salınacaq yaşayış blokları və texnoloji təchizat (YBTT) platformasının üst modullarının tikintisi nəzərdə tutulan qrafikdən tez yekunlaşıb. Yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin vahid bir konstruksiya kimi daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi və quraşdırılması işləri diqqətlə planlaşdırılıb və bu işlərin 5 gün ərzində yekunlaşması nəzərdə tutulur. Üst tikililər artıq öz yerində - suyun 94 metr dərinliyində olan dayaq blokunun üzərinə quraşdırılacaq. Üst tikililərinin çəkisi təxminən 12.400 ton təşkil edir. Obyektin uzunluğu 100, eni isə 60 metrdir. Bu konstruksiya 100 nəfərlik yaşayış blokundan, ümumi gücü 60 MVt olan dörd əsas elektrik generatorundan ibarətdir. Platformanın yaşayış blokunda işçilərin istirahəti üçün otaqlar, ofislər, idman zalı yaradılıb. Burada neftçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün hərtərəfli şərait var.

Platforma ilə tanışlıqdan sonra layihənin işçi heyəti ilə görüşən dövlətimizin başçısı bildirib ki, bir neçə gündən sonra bu nəhəng qurğular dənizə göndəriləcək və «Şahdəniz» yatağında quraşdırılacaq: «Bu, böyük tarixi hadisədir. «Şahdəniz» üzrə kontrakt 21 il bundan əvvəl iyun ayında Xəzər neft və qaz sərgisi zamanı imzalanmışdır. Artıq 21 ildən sonra biz bax, bu tarixi günü qeyd edirik. Bütün bu qurğular Azərbaycanda inşa edilib. Mənə verilən məlumata görə, bu qurğuların inşasında çalışanların əksəriyyəti - 90 faizi Azərbaycan vətəndaşları olub. Yəni bu illər ərzində gözəl kadr potensialı yetişib və bu, əlbəttə, ölkəmizin enerji potensialını, iqtisadi potensialını gücləndirəcək. Çünki təkcə «Şahdəniz-2» layihəsi çərçivəsində əlavə 16 milyard kubmetr qaz, eyni zamanda kifayət qədər kondensat hasil ediləcəkdir. Bütün bu təbii resurslarla bağlı kontraktlar imzalanıb, onların müştəriləri var və inşa edilən Cənub Qaz Dəhlizi vasitəsilə dünya bazarlarına çıxarılacaq».

Sonra Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz «Şahdəniz Mərhələ 2» üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yola salınmasını bildirən düyməni sıxıblar.

# Ölkəmiz dünyada etibarlı tərəfdaş kimi tanınır

Mayın 31-də dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Sərgi Mərkəzində XXIV Beynəlxalq «Xəzər Neft və Qaz-2017» sərgi və konfransının, həmçinin VII Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak ediblər.



Sərgidə dünyanın 30 ölkəsini təmsil edən 300-dək şirkət iştirak edir. Onların arasında Azərbaycan, ABŞ, Belarus, Belçika, İspaniya, İtaliya, Qazaxıstan, Çin, Niderland Krallığı, Polşa, Yaponiya və digər ölkələr var. İtaliya sərgidə öz milli pavilyonu ilə iştirak edir. İştirakçıların ümumi sayının 15 faizini təşkil edən debütantlar arasında ABŞ, Böyük Britaniya, Rumıniya və digər ölkələri təmsil edən şirkətlər yer alıb.

Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, sərginin Azərbaycanda keçirilməsi çox əlamətdar bir hadisədir: «Ölkəmizdə XXIV sərgi keçirilir, bu, özlüyündə bir göstəricidir. Bu, onu göstərir ki, Azərbaycan dünyada neft-qaz hasil edən, bazarlara ixrac edən etibarlı tərəfdaş kimi tanınır. Sərgiyə maraq azalmır, əksinə, artır. İndi qeyd olundu ki, bu sərgidə 300-ə yaxın şirkət iştirak edir. Qəti əminəm ki, builki sərgi də uğurlu olacaqdır. 24 ildir ki, Azərbaycan neft-qaz sahəsində xarici investorlarla çox uğurlu əməkdaşlıq qura bilibdir. Bu əməkdaşlıq qarşılıqlı maraqlar əsasında qurulub, həm dövlət, həm sərmayədarlar öz mənfəətini götürür və beləliklə, Azərbaycanda xarici investorlarla çox gözəl əməkdaşlıq formatı yaradılmışdır. Bu format bu gün digər sahələrdə də özünü büruzə verir».

Prezident İlham Əliyev qeyd edib ki, 1994-cü ildə imzalanmış «Əsrin kontraktı» tarixi layihədir. Əgər o vaxt «Əsrin kontraktı» imzalanmasaydı, Azərbaycanda neft-qaz sahəsinə investisiyalar, «Şahdəniz» yatağına heç bir sərmayə qoyulmazdı: «Əgər neft-qaz kəmərləri tikilməsəydi, bu gün Cənub Qaz Dəhlizi icra edilə bilməzdi. Əgər nəqliyyat layihələri icra olunmasa idi, - bu gün Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizi reallaşır, - heç kim heç vaxt bu layihəyə vəsait qoymazdı. Özü də nəzərə alsaq ki, Azərbaycan bu layihəyə 1 milyarda yaxın vəsait qoyub. Bizim pulumuz olmasaydı, əlbəttə ki, heç kim bu layihəyə vəsait qoymazdı. Ona görə «Əsrin kontraktı»nın Azərbaycan dövlətinin inkişafında müstəsna yeri var».

Azərbaycan Prezidenti qeyd edib ki, enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizlik məsələləridir və Azərbaycan bu sahədə həm bölgədə, həm də Avropada önəmli rol oynayır: «Enerji şaxələndirilməsi istiqamətində atılan addımlarımız öz bəhrəsini verir. Çünki bu da çox önəmlidir. Azərbaycanın icra etdiyi layihələr, onların üstünlüyü ondan ibarətdir ki, bizdə həm marşrutlar, həm mənbələr çoxşaxəlidir. Çünki bu gün bizim üçün əsas bazar Avropa bazarıdır və Avropa üçün də yeni mənbələr böyük əhəmiyyət daşıyır. Əlbəttə, marşrutlar da önəmlidir. Ancaq əsas enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi deyəndə, ilk növbədə, yeni mənbələr nəzərdə tutulur. Avropa ölkələri üçün yeganə yeni mənbə Azərbaycandır. Çünki qalan bütün mənbələr artıq uzun illərdir ki, Avropanı təbii qazla qidalandırır».

Tədbirdə ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqan və Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç də çıxış ediblər. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərgilərlə tanış olublar. Dövlətimizin başçısı sərgi və konfransın xatirə kitabını imzalayıb.

XXIV Beynəlxalq «Xəzər Neft və Qaz-2017» sərgi və konfransı iyunun 3-də başa çatıb.

## Müasir təchizat gəmiləri istismara verilib

Prezident İlham Əliyev mayın 31-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasının «Qubadlı» və «Cəbrayıl» adlı yeni təchizat gəmilərinin istismara verilməsi mərasimində iştirak edib.

Bu tip gəmilərin tikintisi üzrə dünyanın qabaqcıl müəssisələrindən sayılan Norveçin «STX Norway Offshore» gəmiqayırma zavodunda inşa edilən gəmilərin hər ikisi müxtəlif növ yüklərin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulub. Prezident İlham Əliyevin tapşırığına əsasən gəmilərə işğal altında olan rayonlarımızın adları verilib. Hər iki gəmi SOCAR-ın dəniz obyektlərinə xidmət edən köhnə gəmiləri əvəzləyəcək. Gəmilərin hər birinin uzunluğu 73,6, eni 16 metrdir. Dedveyti 3270 ton olan gəmilər öz göyərtəsinə 1600 ton yük götürmək qabiliyyətinə malikdir. Yeni təchizat gəmiləri yanacaq, sürtkü yağı, qələvi məhlul, özül yağı, quru yük, içməli su, qazma məhlulu, konteyner, boru və bu kimi digər müxtəlif yükləri qəbul etmək üçün daha geniş göyərtəyə və böyük həcmli yük tanklarına malikdir. Müasir avadanlıqla, o cümlədən DP-2 dayanıqlılıq sistemi ilə təchiz olunan «Qubadlı» və «Cəbrayıl» gəmilərinin texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir. Gəmilərdə quraşdırılan yanğınsöndürmə avadanlığı isə dəniz obyektlərində yanğın baş verərkən hadisəyə ilkin müdaxilə etməyə şərait yaradır. Xilasetmə əməliyyatlarının yerinə yetirilməsi üçün hər bir gəmi xüsusi xilasedici qayıqla təchiz olunub. Qayıqların konstruksiyası kəskin hava şəraitində dənizdə axtarış və xilasetmə işlərinin yerinə yetirilməsini mümkün edir.

Dövlətimizin başçısı gəmilərin rəmzi olaraq istismara verilməsini bildirən düyməni işə salıb.

## ABŞ Azərbaycanla münasibətlərə önəm verir

Azərbaycan Prezidenti İlham Əliyev mayın 31-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqanı qəbul edib.

Söhbət zamanı ABŞ hökumətinin Azərbaycanın həyata keçirdiyi qlobal layihələri dəstəkləməkdə davam etməsinin böyük əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı qeyd edib ki, «Bakı-Tbilisi-Ceyhan» layihəsini və ondan sonra icra olunan layihələri, o cümlədən «Cənub Qaz Dəhlizi» layihəsini ABŞ hökuməti həmişə güclü şəkildə dəstəkləmiş və bugünkü sərgiyə ABŞ Prezidentinin ünvanladığı məktubda ifadə olunan fikirlər bir daha göstərir ki, Birləşmiş Ştatların yeni administrasiyası da bu layihəyə sadiqdir. Məktubda səslənən fikirlər Azərbaycana verilən dəstəyin və dostluq münasibətlərimizin daha bir göstəricisidir. Prezident İlham Əliyev bildirib ki, «Cənub Qaz Dəhlizi» kimi tarixi layihənin, eləcə də Azərbaycanda bütün enerji layihələrinin həyata keçirildiyi bir dövrdə bu, çox önəmlidir və Robin Danniqanın Azərbaycana səfəri ikitərəfli münasibətlərimizin perspektivləri, eləcə də enerji sahəsində və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaq. Azərbaycan neft və qaz sənayesinin inkişafında yeni səhifə açır, bütün lazımi infrastruktur, boru kəmərləri, peşəkar heyətlər hazırdır.

Xoş sözlərə görə minnətdarlığını bildirən xanım Robin Danniqan Azərbaycanın regionda enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə minnətdarlığını bildirib. Amerikalı qonaq qeyd edib ki, ABŞ Prezidenti Donald Trampın ünvanladığı məktubda səslənən fikirlər birgə işimizə sadiqliyimizin çox aydın göstəricisidir.

Görüş zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılıb.

## BU NÖMRƏMİZDƏ

BİRBAŞA DİALOQ SAHİBKARLIĞIN İNKİŞAFINA TÖHFƏ VERİR 2

TİKİNTİ SEKTORUNDA QEYRİ-RƏSMİ ƏMƏK MÜNASİBƏTLƏRİNİN QARŞISI ALINACAQ 3

NAĞDSIZ HESABLAŞMALARIN ƏHATƏ DAİRƏSİ GENİŞLƏNİR 4

VERGİLƏR RƏNGLƏRİN DİLİ VƏ UŞAQLARIN GÖZÜ İLƏ... 5

# Hökumətin 2016-cı il dövlət büdcəsinin icrası haqqında hesabatı təsdiq olunub

## *Hesabat ilində büdcə-vergi siyasəti çərçivəsində müəyyən edilmiş hədəflər yerinə yetirilib*

Mayın 31-də Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının sonuncu iclası keçirilib. İclasda Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi müzakirə olunub. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, ötənilki büdcənin gəlirləri 16 milyard 822 milyon manat proqnoza qarşı 17 milyard 505,7 milyon manat və ya 104,1 faiz icra edilib. Büdcə gəlirlərinin ÜDM-ə nisbəti 29,2 faizə bərabər olub. Hesabat ilində dövlət büdcəsinin gəlirləri 2015-ci illə müqayisədə 7,7 milyon manat çox olub. 2016-cı ildə dövlət büdcəsinə Vergilər Nazirliyinin xətti ilə 7 milyard 15 milyon 165,4 min manat vergi daxil olub və nazirlik üçün müəyyənləşdirilmiş illik tapşırıq tam həcmdə yerinə yetirilib.

Həmçinin 2016-cı ildə dövlət büdcəsinin xərcləri 18 495,0 milyon manat proqnoza qarşı 17 milyard 751,3 milyon manat və ya 743,7 milyon manat az - 96 faiz icra edilib. Bu göstərici 2015-ci illə müqayisədə 33,2 milyon manat və ya 0,2 faiz azdır. ÜDM-ə nisbəti ilə götürdükdə büdcə xərcləri ÜDM-in 29,6 faizinə bərabər olub. Hesabat ilində dövlət büdcəsinin kəsiri 245,604 milyon manat təşkil edib. Təqdim olunmuş hesabat və məlumatlarda büdcə kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə özəlləşdirmədən daxilolmalar 31,232 milyon manat, xarici qrantlar 12,326 milyon manat təşkil edib, daxili və xarici borclanmadan daxilolmalar isə 186,819 milyon manat olub.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov rəhbərlik etdiyi qurumun 2016-cı ilin dövlət büdcəsinin icrası ilə bağlı rəyini bildirib. Onun sözlərinə görə, hesabat ilində büdcə-vergi siyasəti çərçivəsində müəyyən edilmiş hədəflər əsasən yerinə yetirilib. Bir sıra tədiyyə növləri üzrə icra səviyyəsinin müvafiq makrogöstəricilərlə uzlaşmadığı, tədiyyə növləri üzrə icra göstəricilərinin fərqlənməsinə əsasən proqnozların əsaslılıq səviyyəsi, inzibatçılıq və hesabatlılıq amillərinin təsiri qeyd edilərək göstərilib ki, 2016-cı ildə Azərbaycanda mal, iş və xidmətlərə görə əlavə dəyər vergisi və mənfəət vergisi üzrə icra səviyyəsi 90 faiz təşkil edib. Bununla dövlət büdcəsinin bu mənbədən gəlirlərini formalaşdıran əsas makroiqtisadi göstəricilərin müsbət meyillərinin müşahidə olunduğu, o cümlədən ölkədaxili ümumi istehlak dövriyyəsinin nominal ifadədə 14,3 faiz artması şəraitində baş verdiyi vurğulanıb: «İdxal olunan yanacağa görə yol vergisinin 57,8 dəfə, vahid xəzinə hesabının qalığının istifadəsi və idarəetməyə verilməsindən nəzərdə tutulduğundan 6,4 dəfə, muzdlu işə aid olmayan fəaliyyət üzrə gəlirlərin 3 dəfə çox, eləcə də proqnozlaşdırılmayan bəzi mənbələr üzrə vəsait daxil olması bu mənbələrin hesablanma bazasının bir daha dəqiqləşdirilməsini və əsaslı yanaşmaların tətbiqini zəruri edir.

Maliyyə naziri Samir Şərifov qeyd edib ki, hazırda 2017-ci il dövlət büdcəsinin icrası davam edir, neftdən asılılığın aradan qaldırılması istiqamətində mühüm tədbirlər görülür. Yeni fiskal qaydalar və dövlət borcunun idarə edilməsi üzrə strategiya hazırlanır. Ötən ilin ağır il olmasına baxmayaraq, büdcənin mühüm sosial vəzifələrinin icrasına nail olunub. İqtisadiyyatın yeni reallıqlara adaptasiyası baş verib. Bu, həm dövlət, həm də özəl subyektlərə aiddir. Onun sözlərinə görə, dividendlərlə bağlı proqnoz göstəricisinin icra olunmaması maliyyə sektorundakı itkilərlə bağlı olub: «Dividendlər maliyyə sektorunda fəaliyyət göstərən maliyyə qurumları tərəfindən həyata keçirilir. Ötən il bank sektoru üçün ağır il olub. Devalvasiya nəticəsində itkilər var, bununla bağlı dividendlərin ödənilməsində azalma olub».

Müzakirələrdən sonra 2016-cı il dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsi səsə qoyularaq təsdiq edilib.

> «Azərbaycan və Danimarka arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında» Konvensiyanın təsdiq edilməsi barədə qanun layihəsi təsdiq edilib

Elə həmin gün «Azərbaycan və Danimarka arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında» Konvensiyanın təsdiq edilməsi barədə qanun layihəsi də təsdiq edilib. Qeyd edək ki, konvensiya 2017-ci il fevralın 17-də imzalanıb. Konvensiya vergitutma üsulundan asılı olmayaraq, razılığa gələn dövlət və ya onun inzibati-ərazi bölmələri, yaxud yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə görə tutulan vergilərə tətbiq olunur. Konvensiyanın tətbiq edildiyi vergilərə Azərbaycanda hüquqi şəxslərin mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, Danimarkada dövlətə ödənilən gəlir vergisi, bələdiyyələrə ödənilən gəlir vergisi daxildir.

İclasda uyğunlaşdırma və təkmilləşdirmə məqsədilə Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, «İcra haqqında» qanunda dəyişiklik edilməsi barədə, «Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2017-ci il büdcəsi haqqında» Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 449-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi barədə qanun layihələri də qəbul olunub.

# Birbaşa dialoq sahibkarlığın inkişafına töhfə verir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) birgə təşkilatçılığı ilə keçirilən «İqtisadi islahatlar: əldə edilmiş nəticələr və tövsiyələr» mövzusunda konfrans keçirilib.**




Vergilər Nazirliyində risklərin avtomatik emal edilməsinə, təhlilinə və vergi ödəyicilərinin risk meyarları üzrə qruplaşdırılmasına imkan verən risklərin qiymətləndirilməsi sistemi yaradılıb

### Vergi-gömrük sahəsində mühüm islahatlar həyata keçirilib

Tədbirdə çıxış edən Mərkəzin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, qlobal və regional səviyyədə mürəkkəb iqtisadi proseslərin davam etdiyi hazırkı şəraitdə ölkəmizdə sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı sistemli tədbirlər həyata keçirilir. «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» islahatların davamlılığı üçün geniş zəmin yaradır, təkcə qısamüddətli deyil, həm də orta və uzunmüddətli hədəflərə çatmağa imkan verir.

AmCham-ın prezidenti Nuran Kərimov qeyd edib ki, Azərbaycanda aparılan iqtisadi islahatlar özəl sektorun maraqlarına cavab verir. İqtisadi qanunvericiliyə dəyişikliklər edilən zaman biznes nümayəndələrinin, sahibkarların ictimai təşkilatlarının, həmçinin 260-dan çox xarici və yerli investorun bir araya gəldiyi «AmCham»ın təklifləri nəzərə alınır. Bu isə islahatlarda biznesin fəal iştirakının göstəricisidir. Biznes sektoru üçün tələb olunan prosedurların sayının azaldılması və işgüzar fəaliyyətə əlverişli şəraitin yaradılması, qeydiyyat və prosedurlara daha az resursun sərf edilməsi, rəqəmsallaşdırma, onlayn xidmətlərin göstərilməsi Azərbaycanın investisiya cəlbediciliyini artırır. Özəl sektorun təmsilçilərinin hökumətlə birbaşa dialoqunun , birgə fəaliyyət platformasının yaradılması azad sahibkarlığın inkişafına öz töhfəsini verəcək, cəlbedici və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasını təmin edəcək.

Konfransda iştirak edən Baş nazirin birinci müavini Yaqub Eyyubov isə diqqəti ölkədə aparılan institusional islahatlara, vergi-gömrük sahəsində baş verən yeniliklərə, bu sahələrdə şəffaflığın təmin olunmasına yönəldib. Bildirib ki, əlverişli biznes mühitinin yaradılması, o cümlədən kiçik və orta sahibkarlığın inkişafı, şəffaflığın artırılması məqsədilə vergi sahəsində mühüm islahatlar həyata keçirilib. Bu islahatların tərkib hissəsi kimi, Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı komissiya yaradılıb. Ölkəmizin vergi və biznes mühiti ilə bağlı beynəlxalq reytinqlərdə mövqeyi yüksəlib. Gömrük əməliyyatlarının çevik və şəffaf aparılması məqsədilə malların və nəqliyyat vasitələrinin yoxlanmasında «bir pəncərə» prinsipi tətbiq edilib, beynəlxalq təcrübədə geniş yer tutan «yaşıl dəhliz» və digər buraxılış sistemləri yaradılıb.

Qeyd olunub ki, hazırda dövlət tərəfindən sahibkarlara verilən hərtərəfli dəstək davam etdirilir. Sahibkarlığın inkişafına daha əlverişli şərait yaratmaq məqsədilə vergi-gömrük, fiskal siyasətin davam etdirilməsi nəzərdə tutulub. Bu tədbirlərin yaxın vaxtlarda öz həllini tapması sahibkarların fəaliyyətinin ən yüksək səviyyəyə çatmasına, regionlara özəl investisiya qoyuluşunun artmasına, qeyri-neft məhsullarının ixracının geniş təşviqinə və ixracın həcminin yüksəlməsinə, iqtisadi aktivliyə səbəb olacaq. Qeyri-neft ixracının artması üçün ənənəvi və yeni bazarlara çıxarılması imkanlarının artırılması istiqamətində işlər aparılır, bu məqsədlə Azərbaycan Rəqəmsal Ticarət Qovşağı bölməsi yaradılıb. Ölkəmizdə istehsal olunan mallar və onların istehsalçıları barədə məlumatların əks olunduğu «Azexport.az» portalı yerli sahibkarlara öz beynəlxalq tərəfdaşları ilə transsərhəd elektron xidmətlərinin həyata keçirilməsinə imkan verəcək.

### Sənaye parklarına 1,1 milyard dollar investisiya qoyulacaq

İqtisadiyyat nazirinin müavini Sahil Babayev bildirib ki, Azərbaycanda aparılan yeni iqtisadi islahatlarda sənayeləşmə xüsusi yer tutur. Dövlət tərəfindən təmin edilmiş səmərəli vergi-gömrük rejimi sənaye parklarına marağı artırıb, özəl sektor tərəfindən indiyədək bu sahəyə 800 milyon dollardan çox investisiya qoyulub. Hazırda Sumqayıtda 10, Balaxanıda 5 rezident fəaliyyət göstərir. Həmin sahələrdə 5 mindən çox yeni iş yeri yaradılıb. Qarşıdakı mərhələdə sənaye parklarına 1,1 milyard dollar investisiya qoyulacağı və daha 7 min yeni iş yerinin açılacağı proqnozlaşdırılır. Sənaye parkları ilə yanaşı, Azərbaycanda aqroparklar da yaradılır. Ölkənin 25 rayonunda 35 aqroparkın yaradılması nəzərdə tutulub. Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov isə qeyd edib ki, 2017-ci ildən başlayaraq maliyyə sabitliyinin təmin olunması istiqamətində mühüm addımlar atılmaqdadır. Artıq 5 aya yaxındır üzən məzənnə rejimi siyasəti yürüdülür, ilin sonunadək manatın ucuzlaşması və hər hansı risk görünmür. Manatın məzənnəsinin möhkəmlənməsi riskləri onun ucuzlaşma risklərindən daha böyükdür.

Maliyyə Bazarlarına Nəzarət Palatasının sədri Rüfət Aslanlı isə bank sektorunda davam etdirilən islahatlara toxunaraq qeyd edib ki, bu günədək 11 bank sistemdən kənarlaşdırılıb və 26 bankın 12-də əhəmiyyətli kapitallaşmaya nail olunub. Hazırda 5 bank nəzarət altındadır və onların kapitallaşma proqramı ilin ortalarınadək icra ediləcək. Bu proseslər bank sektorunda müəyyən stabilləşməyə əsas yaradır.

### Vergi ödəyiciləri şəffaf uçota malik olmalıdırlar

Konfransda çıxış edən vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov bildirib ki, 2016-cı ildən başlayaraq vergi orqanlarının xidmətində, strukturunda, qanunverici və inzibatçılıq sahələrində köklü və genişmiqyaslı islahatlar aparılıb. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə qısa müddət ərzində beynəlxalq təşkilatlar, maliyyə institutları, sahibkarların ictimai birlikləri, biznes nümayəndələri ilə sıx və konstruktiv dialoq əsasında Vergi Məcəlləsinə və digər qanunvericilik sənədlərinə həm həcm, həm də mahiyyət baxımından ciddi və böyük dəyişikliklər edilib. Vergi Məcəlləsinə beynəlxalq təcrübəyə əsaslanan bir sıra mütərəqqi yeniliklərlə bağlı müddəalar da əlavə olunub. 2017-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsində öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması qaydası və vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edən «Könüllü vergi açıqlaması» sisteminin tətbiqi, transfert qiymətlərinə və offşor zonalarda qeydiyyatdan keçmiş müəssisələrlə aparılan əməliyyatlara nəzarət mexanizmlərinin qurulması, rəqəmsal iqtisadiyyatın, xüsusilə elektron ticarət üzərində vergi mexanizmlərinin yaradılması öz əksini tapıb. Vergi inzibatçılığının yeni strukturu, ilk növbədə, iri vergi ödəyiciləri üzrə işlərin daha keyfiyyətli təşkilinə, orta sahibkarlarla münasibətlərin əsasən partnyorluq müstəvisində qurulmasına, kiçik sahibkarlara münasibətdə isə daha sadə və səmərəli vergi inzibatçılığının formalaşdırılmasına xidmət edir. Fərqli dövriyyəyə malik və fərqli sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə fərdi yanaşma prinsipinin tətbiqi belə ödəyicilərə daha səmərəli xidmətlərin göstərilməsinə, onlarda vergi nəzarəti tədbirlərinin minimallaşdırılmasına, həmin ödəyicilərə münasibətdə vergilərlə bağlı bütün tədbirlərin vahid vergi orqanından, faktiki olaraq, «bir pəncərə» prinsipi üzrə həyata keçirilməsinə imkan verir.

Vergi qanunvericiliyində və inzibatçılığında edilmiş dəyişikliklər vergi ödəyiciləri ilə vergi orqanları arasındakı münasibətlərin daha üst səviyyəyə çatdırılmasına, vergi yükünün azaldılmasına, uçot siyasətinin təkmilləşdirilməsinə və şəffaflaşdırılmasına, daxili bazarın rəqabət qabiliyyətliliyinin artırılmasına, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə gətirib çıxarıb.

Artıq Vergilər Nazirliyində risklərin avtomatik emal edilməsinə, təhlilinə və vergi ödəyicilərinin risk meyarları üzrə qruplaşdırılmasına imkan verən risklərin qiymətləndirilməsi sistemi yaradılıb. Kiçik və orta sahibkarlıq subyektlərində yoxlamalar təkmilləşdirilir. İlk növbədə, yoxlamaların risk dərəcəsi əsasında aparılması prinsiplərinin tətbiqi genişləndirilir, yoxlamaların sayı optimallaşdırılır. Kiçik və orta sahibkarlıq subyektlərində səyyar yoxlamaların sayı məhdudlaşdırılır və elektron yoxlama metodu tətbiq edilir. İKT sahəsində yeni innovativ texnologiyaların tətbiqi sayəsində ƏDV-nin qaytarılması prosesi sürətləndirilir.

Vergilər nazirinin birinci müavini qeyd edib ki, «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə biznes mühitinin yaxşılaşdırılması məqsədilə yeni vergi islahatlarının aparılması nəzərdə tutulub. Burada əsas diqqət kiçik və orta sahibkarlıq subyektlərinə yönəldilib. Bu məqsədlə növbəti illərdə vergi qanunvericiliyində və vergi inzibatçılığında bir sıra mühüm dəyişikliklərin edilməsi nəzərdə tutulub. Onların sırasında kiçik və orta sahibkarlıq subyektlərində muzdla işləyən işçilərin sayından və əməkhaqqı fondundan asılı olaraq, vergi güzəştlərinin tətbiqi mexanizminin işlənib hazırlanması, ƏDV-nin malların (iş və xidmətlər) təqdim edilməsi üzrə dəyər zənciri boyunca hesablanması, ölkənin sosial-iqtisadi siyasəti nəzərə alınmaqla vergi güzəştlərinin və azadolmaların monitorinqinin aparılması əsas prioritetlərdəndir.

Qeyd edilib ki, dövlət sahibkarlığın inkişafı və biznes mühitinin əlverişliliyinin artırılmasını üçün bütün lazımi addımları atır. Burada sahibkarlıq subyektlərinin üzərinə də böyük məsuliyyət və iş düşür. Vergi ödəyiciləri öz əməliyyatlarında nağdsız hesablaşmalara üstünlük verməli, bütün əməliyyatlar üzrə gəlir və xərclərinin şəffaf uçotunu aparmalı və bu əməliyyatlar üzrə yaranan vergi və hesabat öhdəliklərini vaxtında yerinə yetirməlidirlər.

**Elbrus CƏFƏRLİ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən, sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən ASAN İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunduqda **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən ASAN İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**, ikinci dəfə yol verdikdə **20 faizi**, üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. **Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.**

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin iyun və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin iyun və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az

internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısı alınacaq

Azərbaycan Prezidentinin «Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında» fərmanına əsasən, ilkin mərhələdə pilot layihə olaraq Bakı şəhərində tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı tədbirlər görüləcək. Layihəyə əsasən, əmək müqaviləsi qüvvəyə minmədən iş və xidmətlərin yerinə yetirilməsinə cəlb olunan şəxslərin müəyyən edilməsi məqsədilə nəzarət fəaliyyətinin əlaqələndirilməsi və gücləndirilməsi nəzərdə tutulub. Bununla bağlı Vergilər Nazirliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması sahəsində birgə tədbirlər həyata keçirmək barədə müvafiq tapşırıqlar verilib.

### Müqaviləsiz əmək, yaxud hədərə gedən ağır zəhmət...

*...Qədir İsmayılov inşaat sektorunda işləmək məqsədilə Zaqatala rayonundan paytaxta üz tutub, əvvəlcə ayrı-ayrı şəxslərin evlərinin tikintisi və təmiri ilə məşğul olub. Son 2-3 ildə mülki şəxslər tərəfindən aparılan tikinti işləri azaldığından, podratçı şirkətlərdə təmir işlərinə başlayıb. Dediyinə görə, 2 ilə yaxındır ki, çalışdığı firmanın rəhbərliyi tərəfindən əmək müqaviləsi bağlanması barədə ona müraciət edilməyib. Aylıq zəhmət haqqı iki dəfəyə bölünməklə vaxtında verilir. Qədirin maaşından narazılığı yoxdur, qeyri-rəsmi işçi olmasının onu etibarlı sosial müdafiədən və digər hüquqlardan məhrum etdiyini də yaxşı başa düşür, ancaq razılaşıb işləməyə məcbur olduğunu deyir.*

*Yusif Məhərrəmov isə 10 ilə yaxındır ki, təmir-tikinti firmalarının birində işləyir. Onun da əmək müqaviləsi yoxdur. Bir neçə dəfə müəssisənin rəhbərliyi qarşısında çalışdığı illərin əmək kitabçasında qeydə alınıb-alınmayacağı barədə məsələ qaldırıb, əmin ediblər ki, narahatlığa əsas yoxdur, ona staj yazılacaq. Amma ikitərəfli qaydada əmək müqaviləsi hələ də imzalanmayıb. 58 yaşlı Yusif kişi ailəsini dolandırmaq məcburiyyətində qalaraq rəhbərliklə üz-üzə gəlmək istəməyib. Maaşından «pensiya fondu» üçün nə qədər pul tutulmasından da xəbəri yoxdur, ayın sonunda standart məvacibini alır. Amma onun işlədiyi bu illər də hədərə gedir, bir neçə ildən sonra pensiyaya çıxanda aşağı məbləğdə pensiya təyin olunacağının peşmançılığını çəkəcək. Sonrakı peşmançılıq isə...*

### Ciddi nəzarət olmadan problemin həlli qeyri-mümkündür

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin ötən 4 ayı ərzində tikinti sahəsində çalışan muzdlu işçilərin sayı 88 min nəfər təşkil edib, onların 40 min nəfəri binaların tikintisində, 24 min nəfəri mülki təyinatlı inşaat işlərində, qalan 24 min nəfəri isə ixtisaslaşdırılmış tikinti işlərində çalışıb. İşçilərin 30,2 faizi dövlət, 69,8 faizi isə qeyri-dövlət tikinti müəssisələrində məşğul olub.

***Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov*** hesab edir ki, inşaat sektorunda muzdla çalışanların sayı statistik göstəricilərdən bir neçə dəfə çoxdur: «İndiyə qədər əmək müqaviləsinin bağlanmasının təmin edilməsi, bu sahədə nəzarət və cəza tədbirləri ilə bağlı qanunvericilikdə dəyişikliklər olub, elektron qeydiyyat sistemi tətbiq edilib, yeni qanunlar qüvvəyə minib. Sahibkarlara daha geniş meydan vermək üçün dövlət onların fəaliyyətini stimullaşdırıb, 2 il müddətinə yoxlamalar dayandırılıb. Amma inşaat sahəsində çalışan işəgötürənlər bundan nəticə çıxarmadı, əksinə, sui-istifadə halları artdı, xüsusilə tikinti sektorunda qeyri-rəsmi əmək münasibətlərinin qarşısını almaq mümkün olmadı. Ən problemli məsələ isə odur ki, tikinti şirkətlərinin əmək müqaviləsi olmadan cəlb etdiyi fəhlələrin və digər kateqoriyalı işçilərin baş verə biləcək bədbəxt hadisələrdən sığortalanması imkanları məhdudlaşır. Bəzi hallarda isə belə hadisələr gizlədilir, üstü örtülür. Çox güman ki, hazırda tikintiyə nəzarətin artırılması ilə bağlı konkret mexanizmlərə əsaslanan tədbirlərə başlanması müəyyən irəliləyişlərə səbəb olacaq».

***«MBA Group» konsaltinq şirkətinin baş direktoru Nüsrət İbrahimov*** isə hesab edir ki, bəzi tikinti şirkətləri həm əmək münasibətləri, həm də vergilərin ödənilməsi ilə bağlı ciddi qanun pozuntularına yol verməkdədir: «MTK və podratçı şirkətlərin əksəriyyəti işə cəlb etdiyi insanların statistikasını gizlətməklə bərabər, Mənzil Məcəlləsinin tələblərinə də riayət etmir. Tikinti şirkətləri bir çox hallarda əmək münasibətlərinə məhəl qoymadan işçiləri 10-15 gün işlədir, əməkhaqqını vermir, insanların hüquqlarını pozur. Burada təkcə fəhlələrdən söhbət getmir, həmin binanın gələcək sakinlərinin haqları da pozulur: şirkət inşaat işləri ilə bağlı götürdüyü öhdəliklərə riayət etmir, nəticədə mənzil sahibləri həmin işləri öz vəsaitləri hesabına görməyə məcbur olurlar. Halbuki MTK-lar bunu öz xərc smetalarına daxil edirlər. Yaxşı olardı ki, əmək nəzarəti ilə yanaşı, MTK-ların maliyyə fəaliyyətinə də nəzarət artırılsın».

***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı*** KİV-ə verdiyi açıqlamasında bildirib ki, tikinti sektorunda əmək bazarına nəzarətin artırılması qeyri-leqal məşğulluğun qarşısının alınması ilə yanaşı, bu sahədə əmək haqlarının verilməsində şəffaflığın təmin edilməsində mühüm rol oynaya bilər. Onlayn müşahidələr və digər nəzarət tədbirləri tikinti şirkətlərinin işçi sayı, əməkhaqqı, sosial sığorta ödənişləri və digər məsələlərin hüquqi müstəvidə həllinə gətirib çıxaracaq. Bu proses işçilərə verilən əmək haqlarının, digər ödəniş və əməliyyatların nağdsız yolla həyata keçirilməsinə imkan yaradacaq ki, nəticədə dövlətə ödənilməli olan sosial sığorta və vergilərin həcmi artacaq. Proses, həmçinin, inşaat sektorunda xərclərin optimallaşdırılması sahəsində mürəkkəbliyi aradan qaldıracaq, tikinti şirkətləri ay ərzində müəyyən olunmuş 30 mindən artıq nağdlaşdırma həyata keçirə bilməyəcək, aparılan nağdsız əməliyyatlar zamanı tikinti, təmir-bərpa işlərində qiymətlərin şişirdilməsinin qarşısı alınacaq.

### Vergi nəzarəti ilə bağlı tədbirlər planı...

Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması və nəzarət tədbirlərinin həyata keçirilməsi Vergilər Nazirliyinin də qarşısında duran mühüm vəzifələrdəndir. Vergilər nazirinin müvafiq əmri ilə əmək münasibətlərinə vergi nəzarətinin gücləndirilməsi və bu sahədə işlərin koordinasiyalı təşkili ilə bağlı müvafiq komissiya yaradılıb. Komissiyanın katibliyinin səlahiyyətləri Vergi risklərinin təhlili və nəzarəti departamentinə həvalə edilib. Həmin departamentin şöbə rəhbəri Elşən Rəhimlinin sözlərinə görə, verilmiş tapşırığın icrası məqsədilə vergi orqanları əmək bazarına nəzarətlə bağlı digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq etməkdədir. Bir neçə gün əvvəl «ASAN» xidmət»in əməkdaşları ilə birgə keçirilmiş görüşdə bu istiqamətdə qarşılıqlı əməkdaşlığın və nəzarət fəaliyyətinin əlaqələndirilməsi müzakirə olunub. Birgə əməkdaşlığa əsasən, «ASAN xidmət»in nəzdində fəaliyyət göstərən Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi əmək müqaviləsi olmadan vətəndaşları iş və xidmətlərin yerinə yetirilməsinə cəlb edən şəxslər barədə məlumatları Vergilər Nazirliyinə ötürəcək. İnşaat sahəsində işçilərin uçotunun aparılması məqsədilə tikinti obyektlərində real vaxt rejimində işləyən müşahidə kameraları quraşdırılacaq, onun vasitəsilə tikinti meydançalarında çalışan insanların əmək müqaviləsi, statistikası və digər zəruri məlumatlar müəyyən ediləcək, həmin informasiyalar Monitorinq Mərkəzinə inteqrasiya olunacaq. Yaxın günlərdə vergi orqanlarına verilən operativ məlumatlar əsasında qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması sahəsində müvafiq nəzarət tədbirləri həyata keçiriləcək. Tikinti obyektlərinə səyyar monitorinq qruplarının göndərilməsi, aşkar edilmiş faktların sənədləşdirilməsi, inzibati məsuliyyət tədbirlərinin tətbiq edilməsi nəzərdə tutulub.

E.Rəhimlinin sözlərinə görə, vergilər nazirinin müvafiq əmri ilə «Əmək münasibətlərinə vergi nəzarətinin gücləndirilməsi və bu sahədə işlərin koordinasiyalı təşkilinə dair Tədbirlər Planı» da təsdiq edilib. Sənəddə ən çox risk ehtimal olunan əməktutumlu fəaliyyət növlərinin (tikinti, istehsal, iaşə, hotel, şadlıq sarayı və s.) təhlillər aparılmaqla müəyyən edilməsi, tikilməkdə olan çoxmərtəbəli yaşayış binalarında, digər tikinti obyektlərində fiziki və hüquqi şəxslərin dislokasiyasının aparılması, bu sahədə vahid məlumat bazasının yaradılması nəzərdə tutulub. Bununla yanaşı, vergi riskləri və təhlillərlə kifayətlənməyərək, müstəqil şəkildə müşahidələr əsasında əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən işçilərin əməyə cəlb edilməsi hallarının aşkar olunması ilə bağlı vergi nəzarəti tədbirləri həyata keçiriləcək.



Birgə əməkdaşlığa əsasən, «ASAN xidmət»in nəzdində fəaliyyət göstərən Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi əmək müqaviləsi olmadan vətəndaşları iş və xidmətlərin yerinə yetirilməsinə cəlb edən şəxslər barədə məlumatları Vergilər Nazirliyinə ötürəcək

...Göründüyü kimi, vergi və digər dövlət orqanlarının əməkdaşlarının birgə hədəfi tikinti sektorunda qeyri-leqal məşğulluğu aradan qaldırmaq, işçilərin etibarlı sosial hüquqlarını qorumaq və onların gələcək sosial təminatını yaxşılaşdırmaq, şəffaflığı və dövlət büdcəsinə daxilolmaları təmin etməkdir. Tikinti şirkətləri və fiziki şəxslər anlamalıdırlar ki, onlara bu məsələdə heç bir güzəşt edilməyəcək.

**Elbrus CƏFƏRLİ**

# Əsas məqsəd vergi ödəyicilərinə keyfiyyətli xidmət göstərməkdir

Vergi ödəyiciləri işlərini düzgün qura, eləcə də qanuni mənafelərini müdafiə edə bilmək üçün öz hüquqlarını dəqiq bilməlidirlər. Vergilər Nazirliyi daim vergi ödəyicilərinin hüquqlarının müdafiəsinin marağındadır, bu istiqamətdə maarifləndirmə və məlumatlandırma işlərinə xüsusi diqqət yetirilir.

### *Vətəndaşlar məlumatlandırılır*

Nazirliyin rəsmi internet səhifəsi (taxes.gov.az), sosial şəbəkələrdəki səhifələri, «195» Çağrı Mərkəzi, vergi ödəyicilərinə xidmət mərkəzləri vasitəsilə vergi ödəyiciləri öz hüquqları barədə kifayət qədər məlumat əldə edə bilərlər.Vergi ödəyicilərinin məlumatlandırılması sahəsində bu il yanvar-aprel ayları ərzində Vergi Məcəlləsinə və digər normativ hüquqi aktlara edilən dəyişikliklərin əsas istiqamətləri üzrə sadə formada, misal və nümunələr olmaqla 17 mövzuda izahlı məlumatlar hazırlanmış və xidməti istifadə, eləcə də vergi ödəyicilərinin məlumatlandırılması zamanı istifadə məqsədilə vergi orqanlarına göndərilmişdir. Elektron-qaimə fakturanın tətbiqi barədə vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə müvafiq bildiriş forması hazırlanaraq Vergilər Nazirliyinin rəsmi internet saytının «Xəbərlər» bölməsində yerləşdirilmiş, vergi ödəyicilərinin məlumatlandırılması üçün vergi orqanlarına göndərilmişdir.Vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 15 adda kiçik həcmli buklet hazırlanmışdır. Bulardan ikisi yenidir - «Daşınmaz əmlakın vergiyə cəlb edilməsi» və «Sabit vergi» Azərbaycan və ingilis dillərində nəşr etdirilərək vergi ödəyicilərinə paylanması üçün vergi orqanlarına göndərilmişdir.

### *Vergi ödəyicilərinin yuxarı instansiyalara müraciəti*

Vergi qanunvericiliyi vergi ödəyicilərinə məhkəməyə müraciət etmək hüququ da verir. Lakin məhkəməyə getmədən öncə vergi orqanının yuxarı instansiyalarında öz hüquqlarını bərpa etmək üçün geniş imkanlara malikdirlər. Vergi Apelyasiya Şurası bu məqsədlərə xidmət edir və Şuraya müraciət edən vergi ödəyicilərinin müraciətləri diqqətlə araşdırılır, yaranan mübahisənin maksimum şəkildə vergi ödəyicisinin xeyrinə həll olunması üçün tədbirlər görülür.

Elektron xidmətlərin təşkili vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsinə zəmin yaradır

Fiziki və hüquqi şəxslər vergi orqanlarının qəbul etdiyi inzibati aktlarla bağlı verdikləri ərizə və ya şikayətlərin nəticəsi üzrə Vergilər Nazirliyinin aparatının struktur vahidləri tərəfindən qəbul edilmiş inzibati qərarlardan təkrar şikayətlə Vergi Apelyasiya Şurasına onlayn formada da müraciət edə bilərlər. Bu elektron xidmətin təşkili vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsinə, habelə məhkəməyə qədər sadələşdirilmiş prosedurlara əməl edilməklə mübahisələrin obyektiv şəkildə həll edilməsinə zəmin yaradır.

### *Vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi*

Vergi ödəyicilərinin hüquqlarının müdafiəsində vergi orqanında şəffaflığın təmin edilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə Vergi Məcəlləsi vergi ödəyicisinə vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) də inzibati qaydada və ya məhkəməyə şikayət etmək hüququnu verir. Vergi ödəyicisi eyni zamanda, vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə və vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatı onlayn formada Vergilər Nazirliyinə bildirə bilər. Müraciətlərə «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» və «İnzibati icraat haqqında» qanunlarda göstərilən müddətlərdə baxılır. Müraciət elektron formada, poçt vasitəsilə, şəxsən və «195» Çağrı Mərkəzinə zəng etməklə bildirilə bilər. Müraciət etmə üsullarının yaradılmasında əsas məqsəd vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi üçün şəxslərin birbaşa daxili nəzarət strukturlarına operativ məlumat vermə imkanlarının genişləndirilməsindən ibarətdir. Əgər vergi ödəyicisi mənbəyi bəlli olmayan, heç bir sənəd və ya sübuta əsaslanmayan, yaxud öz şəxsi marağı baxımından vergi işçisinin xidməti vəziyyətini pisləşdirən məlumatlar verərsə, qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

Elektron xidmətlərin təşkili vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsinə zəmin yaradır. Bunun üçün istifadəçi Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (taxes.gov.az) və «Elektron hökumət» portalında (e-gov.az) «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi» və ya «Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi» xidmət növünü seçməklə müvafiq müraciətini öz ünvanına çatdıra bilir.

Vergilər Nazirliyi vergi ödəyicilərinin hüquqlarının qorunması sahəsində tədbirləri mütəmadi davam etdirir. Vergi ödəyicilərinin hüquqlarının müdafiəsi üçün nazirliyin qapıları vergi ödəyicilərinin üzünə açıqdır və vergi ödəyiciləri hüquqlarının müdafiəsində heç bir maneə ilə üzləşə bilməzlər.

**Aytən NƏBİYEVA**

# İxracatçılar üçün yeni elektron ticarət platforması

Türkiyədə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Ümumdünya Kiçik və Orta Sahibkarlıq Forumu arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Razılaşmaya əsasən, Azərbaycanın da kiçik və orta sahibkarları öz məhsullarını «SME.market» platforması vasitəsilə elektron ticarət vasitəsilə satacaqlar. Kiçik və Orta Sahibkarlar (KOS) Forumunun təqdim etdiyi «SME.market» e-ticarət platforması hələlik pilot layihə kimi həyata keçiriləcək. Layihəyə əsasən, Azərbaycan, Türkiyə və Gürcüstan KOS-larının xarici bazarlara çıxış imkanları sadələşəcək.

Hazırda inkişaf etmiş ölkələr ixracın təşviqi vasitələrindən biri kimi elektron ticarət platformasına geniş yer verirlər. KOS-lar çox asanlıqla elekton ticarətə qoşularaq mal və xidmətlərini təklif edir, real müştəri toplayırlar

Dünya KOS Forumunun sədri M.Rifat Hisarcıklıoğlu bildirib ki, artıq ənənəvi ticarətin qaydaları dəyişir. Hazırda inkişaf etmiş ölkələr ixracın təşviqi vasitələrindən biri kimi elektron ticarət platformasına geniş yer verirlər. KOS-lar çox asanlıqla elekton ticarətə qoşularaq mal və xidmətlərini təklif edir, real müştəri toplayırlar. Bu baxımdan, regionda ən yaxın iqtisadi tərəfdaşlar olan Azərbaycan, Türkiyə və Gürcüstanın e-ticarət platformasında birləşməsi birgə bazarlar tapılmasında çox faydalı təşəbbüsdür. Hər üç ölkənin KOS nümayəndələri «SME.market» platformasına qoşularaq rahatlıqla dünya elektron ticarət bazarına daxil ola biləcəklər.

Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının sədri Məmməd Musayev bildirib ki, birgə əməkdaşlığın daha səmərəli təşkili istiqamətində KOS-ların elektron ticarətə qoşulması zamanı əldə edilmiş təcrübənin, bilik və bacarıqların qarşılıqlı olaraq biri-birinə ötürülməsini, KOS-ların elektron ticarət barədə məlumatlılığının artırılması istiqamətində təlimlərin, konfransların, seminarların keçirilməsinə ehtiyac var. Bu məqsədlə konfederasiya görülən işlərdən toplanan təcrübənin digər tərəfdaşlarla paylaşılması, birgə KOS-ların elektron ticarətə qoşulmasını təşviq edən, bunu sürətləndirən proqramların, mexanizmlərin hazırlanması məqsədilə tədbirlər görüləcək.

Birgə əməkdaşlığa əsasən, «SME.market» ilə Azərbaycanda fəaliyyət göstərən «Azexport» e-ticarət platforması arasında da əlaqə yaradılacaq. Bununla da Azərbaycan məhsullarının xarici bazara çıxış imkanları bir qədər də genişləndirilməsi olacaq. Sahibkarlar daha böyük həcmdə sifarişlər əlavə vaxt itirmədən satışı həyata keçirə biləcəklər. Kiçik və orta sahibkarların bu proqramdan rahatlıqla istifadə edilməsi üçün tezliklə e-ticarətdən istifadə qaydalarına dair hər üç ölkədə təlimlərə start veriləcək.

Yaxın vaxtlara belə bir platformanın Azərbaycan, Rusiya və Türkiyə iş adamlarının iştirakı ilə yaradılması da nəzərdə tutulur. Hər üç ölkə regionda birgə geniş iqtisadi proqramlar, layihələr həyata keçirmək niyyətindədir. Azərbaycan, Türkiyə və Rusiya iş adamları iqtisadi sahələrdə birgə layihələr həyata keçirmək üçün TAR (Türkiyə, Azərbaycan, Rusiya) formulu yaratmaq təklifini irəli sürüblər. Konsepsiya Türkiyə, Azərbaycan və Rusiya arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsinə xidmət edir. Bu həm də Türkiyə və Rusiyadan informasiya texnologiyalarının transferi yolu ilə Azərbaycanda iqtisadi dəyəri olan böyük layihələrin həyata keçirilməsini nəzərdə tutur.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Kənd təsərrüfatı məhsullarının satışı

***Vergi ödəyicisi həm özünün istehsal etdiyi, həm də digər şəxslərdən aldığı kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olarkən hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin (VM) 102.1.11-ci, 106.1.14-cü, 164.1.18-ci, 199.9-cu və 219.7-ci maddələrinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları, torpaq vergisi istisna olmaqla, 2019-cu ilin 1 yanvar tarixinədək Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş mənfəət vergisini, gəlir vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad edilmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalı - sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və sair) da daxil olmaqla heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsidir (VM, maddə 13.2.60).

**Qeyd olunanlara əsasən:**

Vergi ödəyicisi tərəfindən özünün istehsal etdiyi kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş gəlirlər (hasilatın həcmi) müvafiq olaraq gəlir vergisindən və sadələşdirilmiş vergidən azaddır. Kənd təsərrüfatı məhsullarının istehsalçılarından alınmış məhsulların satışından əldə olunan gəlirdən (hasilatdan) vergi ödəyicisi seçdiyi vergitutma metodundan (gəlir vergisi və ya sadələşdirilmiş vergi) asılı olaraq müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəyir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Nağdsız hesablaşmaların əhatə dairəsi genişlənir

*Azərbaycan ərazisində aparılan nağdsız hesablaşmaların hüquqi və iqtisadi əsaslarını «Nağdsız hesablaşmalar haqqında» Qanun müəyyən edir*

Qanunun 3.3-cü maddəsinə əsasən, 3.5-ci maddənin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Nağdsız həyata keçirilən hesablaşmalara vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi, «Sığorta fəaliyyəti haqqında» və «İcbari sığorta haqqında» Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər, dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar, stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi, faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi) təhsil haqlarının ödənilməsi və turagentlərə ödəmələr daxildir.




Qeyd olunanlarla yanaşı, vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu, əlvan və qara metal qırıntılarının qəbulu, təkrar istifadə və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu, təkrar istifadə məqsədləri üçün işlənmiş şinlərin qəbulu da nağd qaydada satın alına bilər.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 17 may 2017-ci il tarixdə imzalanmış «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanula bu sahədəki hüquq pozuntuları ilə bağlı maliyyə sanksiyalarının tətbiqi müəyyənləşdirilmişdir.

Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin direktoru Əvəz Quliyevin sözlərinə görə, qanunun tələblərini pozmaqla ödəniş həyata keçirən vergi ödəyicilərinə Vergi Məcəlləsinin 58.7-1.1-ci maddəsi üzrə qanun pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Bu sanksiyalar qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə;

- əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən əmək haqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatların ödənilməsi nağd qaydada həyata keçirildikdə;
- dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi) üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə tətbiq edilir.

Ə.Quliyev pul vəsaitlərini nağd qaydada qəbul edən lizinq verənə, kreditləri nağd qaydada verən kredit verənə də Vergi Məcəlləsinin 58.7-1.2-ci maddəsi üzrə maliyyə sanksiyalarının tətbiq olunduğunu qeyd etdi: «Bu sanksiyalar lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə tətbiq edilir.

Sığorta ödənişlərini edən və sığorta haqlarını nağd qaydada qəbul edən sığortaçıya və ya təkrar sığortaçıya «Sığorta fəaliyyəti haqqında» və «İcbari sığorta haqqında» Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər nağd qaydada həyata keçirildikdə Vergi Məcəlləsinin 58.7-1.3-cü maddəsi üzrə sanksiyaların tətbiq edilməsi qaçılmazdır.

Həmçinin dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə xidmət haqlarını və digər yığımları nağd qaydada qəbul edən şəxsə (dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, büdcə təşkilatları və publik hüquqi şəxslər) (Vergi Məcəlləsinin 58.7-1.4-cü maddəsi üzrə) maliyyə sanksiyaları tətbiq edilir.

Bildirildi ki, stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə stasionar telefon və kommunal xidmətlərin haqqını nağd qaydada qəbul edən şəxsə (Vergi Məcəlləsinin 58.7-1.5-ci maddəsi üzrə), faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə faizsiz pul vəsaitlərini (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaları nağd qaydada ödəyən və qəbul edən şəxsə (Vergi Məcəlləsinin 58.7-1.6-cı maddəsi üzrə) maliyyə sanksiyaları tətbiq edilir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 17 may 2017-ci il tarixdə imzalanmış «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunla bu sahədəki hüquq pozuntuları ilə bağlı maliyyə sanksiyalarının tətbiqi müəyyənləşdirilmişdir

Təhsil haqlarının ödənilməsi üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə təhsil haqlarını nağd qaydada qəbul edən təhsil müəssisələrinə (müvafiq təhsil proqramları əsasında təhsil prosesini həyata keçirən və məzunlara müvafiq təhsil haqqında dövlət sənədi verən qurum) Vergi Məcəlləsinin 58.7-1.7-ci maddəsi üzrə maliyyə sanksiyaları tətbiq edilir.

Nağd qaydada ödəmələri qəbul edən turagentlərə də ödənişlər nağd qaydada həyata keçirildikdə Vergi Məcəlləsinin 58.7-1.8-ci maddəsi üzrə maliyyə sanksiyaları tətbiq edilir.

**F.İKRAMQIZI**

# Transfer qiymətləndirmə gündəlikdədir

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən Türkiyənin paytaxtı Ankara şəhərində «Transfer qiymətləndirmə üzrə mübahisələrin həlli» mövzusunda beynəlxalq seminar keçirilmişdir. Seminarın əsas məqsədi vergi mübahisələrinin həlli və qarşısının alınması üzrə mexanizmlərin müzakirəsi, transfer qiymətləndirmənin tənzimlənməsi zamanı ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı mövqelərin öyrənilməsi olmuşdur.

Tədbirdə Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq vergitutma şöbəsinin əməkdaşı Emil Həsənov iştirak etmişdir.



# İnnovativ sahibkarlıq stimullaşdırılır

İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən 2013-cü ildən «Azərbaycan gənclərinin sahibkarlıq fəaliyyətində iştirakının dəstəklənməsi layihəsi»nin icrasına başlanılıb. Layihədə mühüm yer tutan istiqamətlərdən biri də biznes inkubatorlarının yaradılmasıdır.

İqtisadçı Pərviz Heydərovun sözlərinə görə, biznes inkubatorları yeni fəaliyyətə başlayan sahibkarlıq subyektlərinin, o cümlədən gənclərin səmərəli sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə onlara kompleks texniki-təşkilati və inzibati-təsərrüfat xidmətləri göstərən resurs mərkəzidir: «Dünyada ilk biznes inkubatorları ötən əsrin 50-ci illərində ABŞ-da meydana gəlib. Hazırda onlar bütün dünyada mövcuddur və müvəffəqiyyətlə fəaliyyət göstərir. Biznes inkubatorlarında sahibkarlıq fəaliyyətinə yeni başlayanlara müxtəlif xidmətlər göstərilir və hər bir inkubatorda bu xidmətlərin sayı fərqli olur. Burada göstərilən başlıca xidmətlər, əsasən, ofisin zəruri avadanlıqlarla təmin olunması, mühasibat uçotunun, kargüzarlığın aparılması, biznesin irəliləməsi strategiyasının hazırlanmasında məsləhətlər, sərmayə axtarışı, biznesin idarə olunması və bu sahədə uğura nail olunması üçün müxtəlif təlimlərin, seminarların keçirilməsi və s.-dir. Bu da başlanğıc mərhələdə kiçik sahibkarlıq fəaliyyətinin yaranması üçün önəmli bir yardımdır.

Azərbaycanda iqtisadi islahatlar üçün müəyyənləşdirilmiş strateji yol xəritələri çərçivəsində görüləcək tədbirlər sırasına mərkəzləşdirilmiş agentliyin yaradılması, xüsusi sənaye zonalarının və klasterlərin təşkili, fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması, sahibkarlıq subyektlərinə aid beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi, ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının yaradılması və o cümlədən biznes inkubatorları, startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin təsisi kimi işlər daxildir. Bunların hər biri ayrı-ayrılıqda mühüm və ciddi məsələlərdir».



Azərbaycanda biznes inkubatorlarıının yaradılması istiqamətində ilk addım atılıb və 2014-cü il sentyabrın 10-da Xaçmaz rayonunda Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində biznes inkubatoru fəaliyyətə başlayıb: «Biznes inkubatorunun yaradılmasının əsas məqsədi Quba-Xaçmaz iqtisadi rayonunda gənclərin sahibkarlıq təşəbbüsünün dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması, sahibkarlara göstərilən dövlət dəstəyinin gücləndirilməsidir. Bu biznes inkubatorunda ilkin mərhələdə 20 gənc seçilibki, turizm, istehsal, kənd təsərrüfatı və xidmət sahələrində sahibkar kimi hazırlansın. Biznes inkubatorunun fəaliyyəti üçün Quba-Xaçmaz Regional İnkişaf Mərkəzinin 2 mərtəbəsində 500 kv. metrə yaxın sahə ayrılaraq müasir tələblərə cavab verən ofis avadanlıqları ilə təchiz olunub. Burada gənclərə sahibkarlıq fəaliyyətinə başlamaq üçün nəzəri və praktik məlumatlar veriləcək. Bundan əlavə, onlara biznesin planlaşdırılması və idarə edilməsi, investisiya layihələrinin və biznes planların hazırlanması, marketinq araşdırmalarının aparılması, sərgilərin təşkili, potensial biznes tərəfdaşları ilə əlaqələrin qurulması və digər məsləhət xidmətləri göstərilir. Sonda verilmiş biliklərin gənclər tərəfindən mənimsənilməsi səviyyəsinin öyrənilməsi üçün monitorinq keçirilməsi, nəticələrin təhlili və qiymətləndirilməsi aparılır».

P.Heydərovun sözlərinə görə, 2020-ci ilə kimi ölkədə ən azı 5 biznes inkubatorunun yaradılması nəzərdə tutulur: «Bu layihənin davamı olaraq, Balaxanı Sənaye Parkında, Sumqayıt Kimya Sənaye Parkında, Aran Regional İnkişaf Mərkəzində və s. biznes inkubatorlarının təşkili nəzərdə tutulub».

Cari ilin aprel ayının 17-də ölkədə ikinci biznes inkubator Yevlax rayonunda fəaliyyətə başlayıb. Mayın 26-da Yevlaxda İqtisadiyyat Nazirliyinin Bakı Biznes Tədris Mərkəzinin və İstehlak Mallarının Ekspertizası Mərkəzinin birgə təşkilatçılığı ilə Aran Regional İnkişaf Mərkəzində biznes inkubatorun gənc rezidentləri üçün treninq keçirilib.

«Biznes planların hazırlanması» və «Potensial ixracatçılara ixrac zamanı güzəştlərin tətbiqi» mövzularını əhatə edən treninqdə biznes plan və onun tərtib edilməsi, biznesin növləri və təşkilati-hüquqi formaları, biznes mühiti, mövcud və yeni ixrac bazarları, ixrac sahəsində mövcud qanunvericilik, məhsul ixracatçılarına tətbiq edilən güzəştlər və s. barədə ətraflı məlumat verilib.

**FƏXRİYYƏ**

# Vergilər rənglərin dili və uşaqların gözü ilə...

**Vergilər Nazirliyinin Şamaxıdakı Tədris Mərkəzinin həyətində əsl bayram idi... Respublikanın hər tərəfindən buraya toplaşmış məktəblilər 1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi gününü burada, dəniz səviyyəsindən 1500 metr hündürlükdə dağlarqoynunda qeyd edir, gülür, oynayır, şənlənirdilər...**

Vergilər Nazirliyi tərəfindən ənənəvi olaraq hər il keçirilən müsabiqənin əsas məqsədi gələcəyin vergi ödəyiciləri olan şagirdlərdə vergi mədəniyyətinin, vergi əxlaqının formalaşdırılması, onlara vergilərin ölkənin iqtisadi qüdrətinin və əhalinin həyat səviyyəsinin yüksəldilməsində rolu ilə bağlı biliklərin çatdırılması, bu sahədə maarifləndirmə və təbliğat işlərinin aparılmasıdır.

Müsabiqənin yekun mərhələsinin mütəşəkkil və obyektiv keçirilməsi məqsədilə komissiya yaradılmışdı. Vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədovun sədrlik etdiyi komissiyanın tərkibinə Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisinin birinci müavini Ceyhun Mehdiyev (məsul katib) və Şamaxı Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülnisə Ələkbərova, Şamaxı rayon Təhsil şöbəsinin metodiki kabinetinin müdiri Ağakərim Ömərov və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsinin Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzinin rəssamlıq şöbəsinin müdiri Afaq Həsənova (üzvlər) daxil idilər.

Ə.Məmmədov müsabiqə iştirakçılarını bayram münasibətilə təbrik edərək bildirdi ki, Vergilər Nazirliyi uşaq və gənclər arasında vergi biliklərinin artırılmasına və bu sahədə maarifləndirmə işlərinin genişləndirilməsinə xüsusi önəm verir. 2003-cü ildən hər il nazirliyin təşəbbüsü ilə Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsi keçirilir: «Bizim üçün sevindirici haldır ki, müsabiqədə iştirak edən uşaqların rəsmləri və inşaları mövzu baxımından ildən-ilə zənginləşir, məzmunca yeni çalarlar alır, rəngarəngliyi və aktuallığı ilə izləyicilərdə böyük maraq oyadır və vergi haqqında anlayışların artmasına səbəb olur.

Bu il də müsabiqə çərçivəsində çoxsaylı yaradıcı və istedadlı uşaqları bir araya topladıq. İnanırıq ki, müsabiqədə iştirak edən uşaqlarda artıq vergilərin müasir dövlət və cəmiyyət üçün əhəmiyyəti, vergi mədəniyyəti haqqında təsəvvür yaranmışdır. Belə gənc yaşlarında aldıqları biliklər onların gələcəkdə nümunəvi vergi ödəyicisi kimi formalaşmalarında və ölkəmizin daha da qüdrətlənməsi, inkişafı yolunda yardımçı olacaqdır».

Qeyd edildi ki, bu il müsabiqə bir qədər fərqli - seçmə və yekun mərhələdən ibarət olmaqla ümumrespublika üzrə iki mərhələdə keçirilir: «Müsabiqənin seçmə mərhələsi may ayının 15-dək yerli vergi orqanları tərəfindən onların nəzarət əhatələrinə daxil olan şəhər və rayonların orta məktəbləri və uşaq-gənclər yaradıcılıq mərkəzləri üzrə keçirildi. Aprel ayından start götürən müsabiqəyə təqdim edilmiş 1030-dan çox rəsm nümunəsi və inşa münsiflər heyəti tərəfindən dəyərləndirilərək qaliblər müəyyən olundu».

Tədbir iştirakçılarının diqqətinə çatdırıldı ki, hər il müsabiqədə iştirak etmiş rəsm əsərləri albom şəklində nəşr olunur və nazirliyin qatıldığı sərgi və tədbirlərdə nümayiş etdirilir. Mükafata layiq görülmüş rəsm əsərlərinin çoxu hazırda nazirliyin inzibati binasının divarlarını bəzəyir və bu ilki müsabiqəyə təqdim edilmiş əsərlərin ən yaxşılarından da bu məqsədlə istifadə ediləcəkdir.

Rəsm müsabiqəsi iki yaş qrupuna aid iştirakçıları (birinci yaş yaş qrupu - 6-10 yaş; ikinci yaş qrupu - 11-16 yaş) əhatə edirdi. İnşa müsabiqəsində isə 9-16 yaşlı uşaqlar iştirak edirdilər.

İlkin mərhələnin ən yaxşı nəticə göstərmiş şagirdləri növbəti mərhələdə iştirak hüququ əldə etdilər. Seçmə mərhələdəki müsabiqələrdə iştirak edən şagirdlərə hədiyyələr, növbəti mərhələdə iştirak hüququ qazanan qaliblərə isə əlavə olaraq sertifikatlar təqdim olundu.

Tədbir iştirakçılarına Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzinin «Buta» rəqs ansamblı, tələbə və müəllimlərin, müğənnilərin çıxışı ilə gözəl konsert proqramı təqdim olundu.

Yekun mərhələnin qalibləri nazirlik əməkdaşları tərəfindən diplom və hədiyyələr, iştirakçılar isə sertifikatlarla mükafatlandırıldılar.

İnşa müsabiqəsində Zeynəb Acalova (Zaqatala şəhəri, Akademik Z.Əliyeva adına Texiki fənlər təmaüllü lisey) 1-ci, Vəfa Niftəliyeva (Sumqayıt şəhəri, 11 nömrəli orta məktəb) 2-ci, Aytac Yusifova (Şəki şəhəri, R.Əfəndiyev adına 10 saylı orta məktəb) 3-cü yerə, rəsm müsabiqəsində 6-10 yaş qrupu üzrə Murad Həsənov (Zaqatala şəhəri, 3 nömrəli orta məktəb) 1-ci, Nurxanım Allahquliyeva (Sumqayıt şəhəri, 13 nömrəli orta məktəb) 2-ci, Nəzrin Babayeva (Quba şəhəri, 5 nömrəli orta məktəb) 3-cü yerə, 11-16 yaş qrupu üzrə Fərqanə Ovçiyeva (Bakı şəhəri, Estetik Tərbiyə üzrə Respublika TMM-in TS Qalereyası) 1-ci, Elvin Muradov (Qax rayonu, N. Allahverdiyev adına 2 nömrəli məktəb) 2-ci, Fidan Həşimli (Qəbələ rayon, Zarağan kənd 2 saylı orta məktəb) 3-cü yerə layiq görüldülər.







**Söz qaliblərindir:**

*Nurxanım Allahquliyeva:* «Təqdim etdiyim şəkil Azərbaycanımızın yeraltı-yerüstü sərvətlərini ifadə edir. Burdan toplanan vergi xalqın sosial rifahının yüksəldilməsinə, xəstəxanalara, məktəblərə istifadə olunur. Vəzifəsindən, ixtisasından asılı olmayaraq hər bir ölkə vətəndaşının vergiləri vaxtında ödəməsi iqtisadiyyatımızın güclənməsinə, xalqımızın maddi rifahının artmasına gətirib çıxarır».

*Fidan Əliyeva:* «Vergilər uşaqların gözü ilə» mövzusunda zonalar üzrə inşa müsabiqəsində yer tutmuşam. Mən Azərbaycan Respublikasını ailə kimi görürəm. Biz də hər birimiz o ailənin üzvləriyik. Öz ailəmizlə respublikamızı müqayisə edərkən başa düşdüm ki, ailədə hər kəs bir tərəfə çəkilib, özü üçün yaşayarsa, o ailə çökər. Dövlət büdcəsi də elədir, əgər qazanclardan yığılan mənfəətin müəyyən hissəsini büdcəyə köçürməsək, ölkəmiz inkişaf etməz, şagirdlər təhsil, əlillər müavinət ala bilməz. Əsgərlərimiz Vətənin müdafiəsində dura bilməzlər.

Mən inşa yazarkən daxilimdə hiss etdiklərimi, fikir və düşüncələrimi bildirirəm, bu mənə cəmiyyətə, ətrafıma söyləmək istədiklərimi çatdırmağa imkan verir».

*Vəfa Niftəliyeva:* «Qalib gəlməyimdə əməyi keçən bütün insanlara - valideynlərimə, müəllimlərimə minnətdaram. «Vergi uşaqların gözü ilə» mövzusunda yazdığım inşada vergi verməyin hamı üçün bir borc olduğunu ifadə etməyə çalışdım. Vergilərin yığımından həm dövlətimiz, həm də özümüz faydalanırıq. Bizə hər il pulsuz dərs vəsaitləri paylanılır. Bunlar, əlbəttə, yığılan vergilərin sayəsində büdcəyə daxil olan vəsait hesabınadır. Eləcə də daim bizim müdafiəmizdə duran şanlı ordumuzun silahlarla təminatında, xəstələrin pulsuz müalicəsində, qocalar, körpələr evlərinin fəaliyyət göstərməsində vergilərin payı çoxdur».

*Fidan Haşımlı:* «Vergilər bizim müdafiəmizdə durur. Vergi veririk, dövlət inkişaf edir və bu inkişaf yenə də bizə dönür, bizim rifahımızı yüksəldir. Baxın, mən ağacı dövlət kimi təsvir etmişəm.Bu ağacı vergi ilə suvarırıq, ağac bar verir, biz də ondan istifadə edirik»...

*Elvin Muradov:* «Əmək fəaliyyəti ilə məşğul olan hər bir kəs maaş alır, maaşlar isə dövlət büdcəsindən ödənilir. Mənim təqdim etdiyim rəsmdə gördükləriniz rəmzi məna daşıyır. Məsələn, mən rəsmimdə vergi ilə gözəl inkişafa nail olan bir ölkə təsvir etməyə çalışmışam. Əllər ölkəmizin vətəndaşlarını bildirir. Bunlar enerji stansiyalarıdır, gücün rəmzidir. Sərnişin təyyarələri xarici dövlətlərə inteqrasiyasımızı, qırıcı təyyarələrsə ordumuzu təmsil edir. Heydər Əliyev Mərkəzinin, Qız qalasının təsviri mədəniyyətimizin rəmzidir. Bütün bu təsvirlər böyük bir kassada birləşib. Bu kassaya vergilər ödənildikcə dövlət də inkişaf edir».

*Fərqanə Ovçiyeva:* «Mən bu yarışmaya təsviri incəsənət qalereyasından qatılmışam. Müsabiqəyə təqdim etdiyim rəsmimlə hər kəsin vergiləri ödəməyə borclu olduğunu ifadə etməyə çalışmışam. Gördüyünüz kimi, aşağıda uşaqlardır, yəni vergi uşaqların gözü ilə təsvir olunur, mərkəzdə vergilərin loqosudur. Burada Azərbaycan atributları əks olunub. Günəşin şüaları isidir, göyərçinlər qanad çalır: bu da əmin-amanlığa, sülhə işarədir».



**Sevindirici haldır ki, müsabiqədə iştirak edən uşaqların rəsmləri və inşaları mövzu baxımından ildən-ilə zənginləşir, məzmunca yeni çalarlar alır, rəngarəngliyi və aktuallığı ilə izləyicilərdə böyük maraq oyadır və vergi haqqında anlayışların artmasına səbəb olur**



*Zeynəb Acalova:* «Yazımda verginin mahiyyətini, nə üçün ödənilməli olduğunu çatdırmağa çalışmışam. Mən dövlətimizi kitaba bənzədirəm və onun uğurla yazılmış hər səhifəsində vergilərin izi vardır. Biz dərslərimizi yaxşı oxumaqla, məktəbdənkənar tədbirlərdə, ictimai işlərdə fəal iştirak etməklə, gənclərimiz orduda göstərdikləri xidmətləri ilə, yaşından, gördüyü işdən asılı olmayaraq hər bir kəs vaxtında ödədiyi vergi ilə Vətən qarşısında borcunu yerinə yetirməlidir.

Bu müsabiqədə iştirak edən hər bir uşaq qalibdir. Çünki Azərbaycanın çiçəklənməsi yolunda vergilərin əhəmiyyətini əks etdirən bir müsabiqənin iştirakçılarıyıq».

*Murad Həsənov:* «Mən rəsmimdə bir cizgi filmi qəhrəmanının - Bentenin obrazını yaratmışam. Əslində bu sujet mənim çoxdan beynimdə idi. Ulduzlar, şimşək və Bentenin birgə təsviri ilə ölkə, dövlət büdcəsi və vergi üçlüyünü yaratmaq istədim...».







**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanın ixrac imkanları genişlənir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «İxrac İcmalı»nın yeni sayı təqdim olunub. İcmalın ikinci sayında qeyri-neft sektoru üzrə ixracına dair dördaylıq məlumat, «Azexport.az» portalına bu ilin 4 ayında daxil olan ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü, Azərbaycanın nar şirəsini, şərablarını və s. ən çox sifariş edən ölkələr barədə infoqrammlar yer alıb. Qeyd edilib ki, «Azexport.az» portalına 2017-ci ilin 4 ayı ərzində 42 ölkədən ixrac sifarişləri daxil olub. Aprel ayında Azexport.az portalına daxil olan sifarişlərin ümumi dəyəri isə 29,9 milyon ABŞ dolları olub. Ümumilikdə isə 2017-ci ilin 4 ayı ərzində «Azexport.az» portalına 111 milyon ABŞ dollarından çox ixrac sifarişi daxil olub. Beləliklə, ötən ilin 4 ayı ilə müqayisədə qeyri-neft sektorunda ixrac 22 faiz artıb.

Aprel ayında sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olur ki, qeyri-neft sektorunda istehsal edilən müxtəlif məhsullar - konyak, şərab, soğan, noxud, göbələk, yumurta, kərə yağı, pendir, pambıq yağı, albalı şirəsi, nar şirəsi, fındıq ləpəsi, quru süd, toyuq əti, bibər turşusu, günəş paneli, mühərrik yağı, boya sifariş olunanlar arasındadır.




«İxrac icmalı»nın ikinci sayında həmçinin «Azexport.az» portalının inteqrasiya olunduğu portallara dair məlumat, bitki və bitkiçilik məhsulları ixracı zamanı fitosanitar sertifikatının tələb edilməsi ilə bağlı şərh və ixrac gömrük bəyannaməsinin «Azexport.az» portalından göndərilməsi imkanları barədə xəbərə yer verilib. İcmalın növbəti saylarında müntəzəm olaraq, dünyanın müxtəlif ölkələrinin ixrac və idxalla bağlı qaydalardakı dəyişikliklər və yeniliklərlə bağlı məlumatlar da əksini tapacaq.

«İxrac İcmalı»nın bundan sonra da müntəzəm yayımı nəzərdə tutulub. İcmalın məqsədi sahibkarları ixracla bağlı maarifləndirməyə, yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmağa və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirməyə xidmət edəcək.




# «Güzəştli mənzil» elektron sistemi

May ayının 30-dan Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququna malik vətəndaşların müraciətlərinin qeydiyyatına başlanılıb. Güzəştli mənzil əldə etmək hüququ olan vətəndaşlar «Elektron imza» və ya «ASAN imza» vasitəsilə qeydiyyatdan keçib «Elektron hökumət» portalına daxil olmaqla «Güzəştli mənzil» elektron sistemi xidmətindən istifadə edərək müraciətlərini MİDA-ya göndərə bilərlər.

«Güzəştli mənzil» sistemində qeydiyyata alınmış şəxs barəsində elan verilmiş mənzili həmin sistemdə seçə biləcək. Müraciət edən şəxs mənzili ünvan əsasında seçəcək və seçilmiş mənzili digər şəxslərin seçməsi imkanı elektron sistem vasitəsilə məhdudlaşdırılacaq. Mənzilin seçilməsi və seçilmiş mənzilə məhdudiyyət qoyulması ilə bağlı müraciət edənin elektron kabinetində sistem vasitəsilə dərhal məlumat yerləşdiriləcək.

# Daşınmaz əmlaka çıxarışın elektron qaydada verilməsi

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən «Elektron çıxarış sistemi»nin tətbiqinə başlanılmaqla daşınmaz əmlakın qeydiyyatı sahəsində mühüm yenilik edilib. «Daşınmaz əmlakın dövlət reyestri haqqında» Qanuna edilmiş son dəyişikliyin əsas məqsədi qeydiyyat prosesində vətəndaş-məmur ünsiyyətini minimuma endirmək, prosesi sadələşdirməklə bu sahədə operativliyi və optimallığı artırmaqdır.

Komitədən verilən məlumata görə, daşınmaz əmlakın qeydiyyatı prosesi üç mərhələdən ibarətdir:

- vətəndaşdan hüquq müəyyənedici sənədlərin və ərizənin qəbul edilməsi;
- qeydiyyatın icrası və sənədlərin emalı;
- hazır sənədlərin vətəndaşlara verilməsi.

Çıxarışların elektronlaşması ilə artıq bu mərhələlərdən əvvəl yaranmış hüquqlar, habelə təkrar bazarda hüquqların qeydiyyatında sənədlərin qəbulu, elanı və icrası prosesi tam olaraq elektron qaydada həyata keçirilir. Çıxarışın elektron verilməsi isə prosesin sona qədər elektronlaşmasını təmin edir.

Vətəndaşlar daşınmaz əmlaklarına dair sənədi öz arzusuna görə elektron və ya kağız formada əldə edə bilərlər. Bundan sonra əmlak sahibi çıxarışını hər hansı idarəyə gəlmədən «Elektron hökumət» portalında yaradılacaq «şəxsi kabinet»indən elektron formada ala bilər. Daşınmaz əmlakın dövlət reyestrindən kağız formada təqdim edilən çıxarışda göstərilən bütün məlumatlar elektron çıxarışda da əks olunacaq. Elektron çıxarış əldə etmiş şəxs bu sənəddən bütün dövlət orqanlarında, o cümlədən notariat kontorlarında tam istifadə edə biləcək. Elektron imza ilə təsdiqləndiyi üçün çıxarışın elektron variantı bütün əməliyyatlarda tam hüquqlu sənəd kimi istifadə olunacaq.

Bundan əlavə, kağız çıxarışın itirilməsi, yararsız hala düşməsi ilə bağlı problemlər də ortadan qalxacaq. Kağız çıxarışın başqa insanlar tərəfindən saxtalaşdırılması və qanunsuz istifadə edilməsi halı tam istisna edilir. Çıxarış və arxivlərin elektronlaşdırılmasının icrası bu prosesin daha da optimallaşdırılması, maksimum sadələşdirilməsi, şəffaflığın və əhalinin əmlaklarını daha rahat və əlçatan şəraitdə qeydiyyatdan keçirməyə imkan yaradır. «Elektron çıxarış sistemi» çıxarışları, eləcə də digər arayışları hətta xarici ölkələrdə olduqda da ala bilmək imkanı verir, rahatlıqla yanaşı, vətəndaşa vaxtını daha səmərəli planlaşdırmağa şərait yaradır. Elektron çıxarışlar ayrı-ayrı dövlət qurumları tərəfindən verilən sorğuların cavablandırılması, əhalinin əmlakları üzərində iqtisadi əməliyyatların aparılması işini yüngülləşdirir və optimallaşdırır.

Qeyd edək ki, «Elektron çıxarış sistemi» inkişaf etmiş ölkələrdə də geniş istifadə edilir. Hollandiya, Almaniya, Latviya və s. dövlətlərdə çıxarışlar xüsusi blanklarda deyil, yalnız elektron şəkildə təqdim olunur. Ölkəmizdə də bu sistemin hazırlanmasında və tətbiqində beynəlxalq təcrübə öyrənilib və sistem ən optimal model əsasında tətbiq edilir.

**AYTƏN**

# «Yaşıl kart»

«Yaşıl kart» beynəlxalq sığorta sistemi avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası şəhadətnaməsinin bu sistemin üzv ölkələri arasında qarşılıqlı tanınması haqqında sazişdir. Bu sazişin iştirakçıları olan ölkələrin hər hansı biri tərəfindən verilmiş «Yaşıl kart» sığorta şəhadətnaməsi həmin Sazişin iştirakçısı olan digər dövlətlərin ərazisində etibarlı sayılır. «Yaşıl kart» sisteminin başlıca təyinatı onun üzvü olan istənilən ölkəyə səfər edən əcnəbi sürücülərin mülki məsuliyyətinin onların mənsub olduğu ölkənin qanunvericiliyinə uyğun qaydada sığortalanması ilə səyahət etdikləri ölkələrdə törətdikləri yol-nəqliyyat hadisələri nəticəsində vurduqları zərərin əvəzinin hadisənin baş verdiyi ölkənin qanunvericiliyinə uyğun qaydada ödənilməsini təmin etməkdən ibarətdir. Hazırda bu sistemə 48 ölkə üzvdür. Ölkəmiz 2015-ci ilin may ayından sistemə üzv qəbul edilmiş və 2016-cı il yanvarın 1-dən sistem çərçivəsində fəaliyyət göstərir.

Sistemin əsas üstünlüyü «Yaşıl kart» sahibinin yol-nəqliyyat hadisəsi törətdiyi zaman yaranan mülki məsuliyyətinin təminat məbləğləri ilə bağlıdır. Sistemə daxil olan hər bir ölkə üzrə bu cür təminat məbləğləri müəyyən olunmuşdur və əksər ölkələrdə bu məbləğlər olduqca yüksək və hətta məhdudiyyətsizdir. Bu o deməkdir ki, «Yaşıl kart» sahibi olan sürücünün səbəb olduğu yol qəzası nəticəsində zərərçəkən qarşı tərəfin əmlakına və ya sağlamlığına dəyən zərər əksər hallarda məbləğindən asılı olmayaraq tam həcmdə hadisənin baş verdiyi ölkənin Yaşıl Kart Bürosu tərəfindən qarşılanacaq. «Yaşıl kart» sistemi çərçivəsində vurulan zərərin əvəzinin ödənilməsi məqsədilə sistemə üzv ölkələrin hər birində milli Yaşıl Kart Bürosu təsis edilmişdir. Bu bürolar əcnəbi sürücülərin səbəb olduğu yol-nəqliyyat hadisələri nəticəsində xəsarət almış və ya əmlakına zərər dəymiş üçüncü şəxslərə vurulan zərərlərin əvəzinin sığorta ödənişi formasında veriləcəyinə təminat verir. Daha sonra, hadisə baş verən ölkənin Yaşıl Kart Bürosu hadisəni törətmiş sürücünün «Yaşıl kart»ının mənsub olduğu ölkənin bürosundan ödənilmiş sığorta ödənişi həcmində vəsaiti geri alır.




> 2016-cı il ərzində «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 10.514 beynəlxalq sığorta müqaviləsi bağlanılmış, sığorta müqavilələri üzrə sığorta haqları 768.684 manat təşkil etmişdir

Azərbaycanda Yaşıl Kart Bürosunun funksiyalarını İcbari Sığorta Bürosu (İSB) yerinə yetirir. İSB-nin məlumatına görə, bu ilin birinci rübü ərzində «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 5180 beynəlxalq sığorta müqaviləsi bağlanılmış, müqavilələr üzrə sığorta şirkətləri tərəfindən toplanmış sığorta haqları isə 381.422 manat təşkil etmişdir. Müqavilələrin 4155-i minik, 539-u yük, 457-si qoşqu, 27-si avtobus, 2-si isə motosiklet kateqoriyasına aid nəqliyyat vasitələri ilə bağlı olmuşdur.

Bu ilin may ayı ərzində «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 2604 müqavilə bağlanılmış, bu müqavilələr üzrə sığorta şirkətləri tərəfindən toplanmış sığorta haqları 166 488 manat təşkil etmişdir. Müqavilələrin 2144-ü minik, 232-si yük, 204-ü qoşqu, 17-si avtobus, 7-si isə motosiklet kateqoriyasına aid nəqliyyat vasitələri ilə bağlı olmuşdur.

Xatırladaq ki, 2016-cı il ərzində «Yaşıl kart» sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar tərəfindən 10.514 beynəlxalq sığorta müqaviləsi bağlanılmış, sığorta müqavilələri üzrə sığorta haqları 768.684 manat təşkil etmişdir. Hazırda «Yaşıl kart» sığorta növü üzrə İcbari Sığorta Bürosunun 13 iştirakçı sığorta şirkəti fəaliyyət göstərir.

**A.NƏBİYEVA**

## 2017-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli vergilər barədə

### YADDAŞ

**2017-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçici olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- **Muzdlu işlə əlaqədar 2017-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin iyun ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti il yanvarın 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2-ci rüb üzrə bəyannaməni iyulun 20-dən gec olmayaraq təqdim edirlər).

- **Xüsusi notariusların 2017-ci ilin may ayı üzrə hesabladıqları gəlir vergisi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyulun 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi

beynəlxalq panoram

# Turistlərdən tutulan vergi özünü doğrultmur

Portuqaliyada restoran və otel biznesinin nümayəndələri ölkə parlamentini turistlərdən tutulan və getdikcə əhatə dairəsi genişlənən vergilərə yenidən baxmağa çağırmışlar. Ölkədə turistlərdən vergi ilk dəfə Lissabon və Kaşkayş bələdiyyələrində tutulmuşdur. Porto və Villa-Real-de-Santu-Antunio kimi digər iri bələdiyyələr isə turistlər üçün sonradan «nəzərə çarpmadan» belə bir verginin tətbiqinə başlamışlar. Lissabonda şəhərə hava yolu ilə gələn turistlərdən 1 avro, onların qaldıqları hər gecə üçün də əlavə 1 avro vergi tutulur. Portuqaliyanın otel və restoranlar assosiasiyası xəbərdarlıq etmişdir ki, bu vergilər ölkəyə gəlir gətirən turizm sektorunu çökdürə bilər. «Beşulduzlu» lüks mehmanxanalarda qalan turistlər ilə daha ucuz yerləri seçən turistlərdən eyni məbləğdə vergi tutulmasının ədalətsizlik olduğu qeyd edilmişdir. Təşkilatın məruzəsində ölkənin müxtəlif ərazilərində turistlərdən vergi toplamağa şərait yaradan qeyri-ardıcıl yanaşma da tənqid olunmuşdur. Qeyd edilmişdir ki, turizm sektoru yenidən investisiya kimi bu sahəyə yönəldilməyən vergi inzibatçılığına cavabdeh olmamalıdır. Əyalətlərdə turizm sənayesinə tətbiq edilən vergilərin sayı artsa da, Portuqaliya hökuməti mehmanxanada yaşamaq üçün tətbiq olunan əlavə dəyər verginin dərəcəsinin 6%-ə endirilməsini təklif etmişdir.

# Bu həftədən «günah vergisi» qüvvəyə minir

Səudiyyə Ərəbistanında tətbiqinə iyunun 10-dan start veriləcək «günah vergisi» adlı yığım siqaretə, eləcə də tərkibində alkoqol olmayan energetik və qazlı içkilərə aid ediləcək. Siqaret üçün tətbiq olunan verginin dərəcəsi 100%, energetik və alkoqolsuz qazlı içkilər üçün tətbiq edilən verginin dərəcəsi isə 50% təşkil edəcək. Beləliklə, Səudiyyə Ərəbistanı İran körfəzi regionunda başqa cür adlandırılsa da, faktiki olaraq, aksiz vergisi tətbiq edən ilk ölkə olacaq. Ekspertlərin proqnozlarına əsasən, bu ilin sonuna qədər «günah vergisi»ndən dövlətin büdcəsinə 1,87 milyard dollar əlavə vəsait daxil olacaq. Xatırladaq ki, bu ilin əvvəlindən ölkə tarixində ilk dəfə əlavə dəyər vergisinin, indi isə «günah vergisi»nin tətbiqi neftin qiymətinin ucuzlaşması ilə bağlı ortaya çıxan iqtisadi problemlərin aradan qaldırılmasına yönəldilmiş tədbirlərdir.

«ƏDV-nin və «günah vergisi»nin tətbiqinin məqsədi postneft erasına hazırlıq çərçivəsində iqtisadiyyatın şaxələndirilməsinə nail olmaqdır», - Səudiyyə Ərəbistanının Maliyyə Nazirliyindən bildirilmişdir.

# BEPS konvensiyası tətbiq ediləcək

Rusiya Federasiyası hökumətinin verdiyi açıqlamaya görə, Rusiya İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının vergi bazasının yuyulmasının və gəlirlərin azaldılmasının qarşısının alınması üzrə (BEPS) konvensiyasını imzalayacaq. Bu gün keçirilən imzalama prosesində 100-dən artıq dövlətin nümayəndələri iştirak edirlər. Konvensiya Rusiya ilə digər ölkələr arasında imzalanmış 63 vergi sazişinə tətbiq olunacaq. Bununla yanaşı, hazırda İsveç və Yaponiya ilə vergi sazişləri də hazırlanma prosesindədir. Məlumata əsasən, həmin sazişlər də BEPS prinsiplərinə uyğun şəkildə tərtib ediləcək.

## Xəbər lenti

**Ukrayna** məhkəməsi Dövlət Fiskal Xidmətinin keçmiş rəhbəri Roman Nəsirovun müalicə üçün xaricə getmək xahişini rədd etmişdir. R.Nəsirov vəzifə mövqeyindən ağır nəticələrə səbəb olmuş sui-istifadəyə görə ittiham edilir.

**Yunanıstan** parlamenti vergi bazasının genişləndirilməsini özündə ehtiva edən sərt iqtisadi tədbirlər paketini təsdiq etmişdir. Kreditorlardan yeni vəsaitlərin cəlb edilməsi məqsədilə dövlət tərəfindən bu aydan vergi daxilolmalarının artırılması və dövlət xərclərinin azaldılması ilə bağlı tədbirlərin yeni mərhələsinə keçməyə razılıq verilmişdir.

**ABŞ**-ın Çikaqo ştatında aylıq telefon hesablarının ödənilməsi zamanı tutulan vergi 28,2% artırılacaq. Artıq İllinoys ştatında bu vergini pensiya fondunun maliyyələşdirilməsi məqsədilə artırmışlar. Vergi həm ev telefonlarına, həm də mobil telefonlara aiddir. İndiyədək Çikaqo sakinləri ayda 3,9 dollar telefon vergisi ödəyirdilər, bundan sonra isə 5 dollar ödəməli olacaqlar.

**Böyük Britaniya**da hakim Mühafizəkarlar Partiyası qarşıdakı seçkilərdə qalib gələcəyi təqdirdə vətəndaşlardan tutulan vergilər azaldılacaq - Baş nazir Tereza Mey seçki kampaniyası çərçivəsində keçirilmiş görüşdə vəd etmişdir.

**Litva**nın Baş naziri Saulyus Skvernyalis demişdir ki, gələn ilin dövlət büdcəsində pensiyaların, uşaqlar üçün, eləcə də yoxsulluğun azaldılması üçün müavinətlərin verilməsinə əlavə yarım milyard avro vəsait ayırmaq planlaşdırılır. Onun sözlərinə görə, bu vəsaitin əldə edilməsi üçün vergilər artırılmayacaq: hökumət bunu «kölgə iqtisadiyyatı»na qarşı sərt tədbirlər görməklə həll etmək ümidindədir.

**Pakistan** hökuməti iyulun 15-dən pambıq idxalı üzrə 5 faizlik satış vergisinin və 4 faizlik gömrük rüsumunun bərpa olunacağını bəyan etmişdir. Qeyd edək ki, yanvar ayında tekstil istehsalı üçün ölkəyə gətirilən pambıq və aidiyyəti avadanlıqlarla bağlı satışdan vergi və gömrük rüsumları ləğv edilmişdi.



# Karbon qazı vergisini qaldırmaq tələb olunur

Dünyanın aparıcı iqtisadçıları bu fikirdədirlər ki, faciəvi qlobal istiləşməyə qarşı mübarizə məqsədilə 2030-cu ilə qədər bütün ölkələr atmosferə atılan hər metrik ton karbon qazına görə vergini ən azı 100 dollar müəyyənləşdirməlidir. Aralarında iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Cozef Stiqlitsin və Dünya Bankının keçmiş aparıcı iqtisadçısı Nikolas Sternin də olduğu mütəxəssislər hesab edirlər ki, bu məqsədlə 2020-ci ilə qədər hər metrik ton karbon qazı üçün vergi 40-50 dollara çatdırılmalıdır. Onların mayın 29-da nəşr etdirdikləri məruzədə bu da qeyd edilmişdir ki, kasıb ölkələrin iqtisadiyyatında həssaslıqlar olduğu nəzərə alınmaqla, onlarda verginin dərəcəsi bir qədər aşağı müəyyənləşdirilə bilər.

Hazırda ABŞ-da belə bir yığım mövcud deyil. D.Trampın administrasiyası isə hesab edir ki, bu verginin tətbiq olunması müəyyən sayda iş yerlərinin bağlanması ilə nəticələnə bilər. Avropa İttifaqında indiki bir ton karbon qazı emissiyasına görə vergi 6 dollar təşkil edir. Avropadan kənarda Sinqapurda da belə bir vergi tətbiq olunmaqdadır.

# Günəş enerjisi avadanlıqları üçün vergi

Hindistan hökuməti günəş enerjisinin əldə edilməsi üçün zəruri olan avadanlıqlara 5%-lik vergi tətbiq olunacaq. Rəsmi dairələr ölkədə aparılan vergi islahatları çərçivəsində bu sahə üzrə gələcək vergiqoyma prinsiplərinin bütün aspektlərinə aydınlıq gətirmişdir. Bildirilmişdir ki, əvvəlcədən məlumat verildiyi kimi, Hindistan günəş enerjisinin əldə olunmasında istifadə edilən fotoelektrik elementləri və panellər üçün sıfır dərəcə ilə vergi tətbiq olunmasından imtina edəcəkdir, lakin bu sahəyə 18%-lik dərəcə də tətbiq olunmayacaq. Ölkədə iqtisadiyyatın inkişafına şərait yaratmaq, daş kömürdən asılılığı aradan qaldırmaq və atmosferə karbon qazı emissiyalarını azaltmaq məqsədilə qarşıdakı beş il müddətində günəş enerjisi istehsalını 100 qiqavatta çatdırmaq nəzərdə tutulur. Lakin iyulun 1-dən günəş enerjisi istehsalı üçün zəruri olan avadanlıqlara 5%-lik vergi tətbiq olunması bu enerjinin istehsalının əlverişliliyini aşağı salır və günəş energetikasını kömürlə işləyən elektrik stansiyaları ilə eyni səviyyəyə gətirir.

# «Tax free» ilə bağlı qanun layihəsi təkmilləşdirilir

«İzvestiya» qəzetinin yazdığına görə, Rusiyanın Maliyyə Nazirliyi «tax free» sisteminin təkmilləşdirilməsi ilə bağlı qanun layihəsi üzərində işi davam etdirir. Hazırda Federal Vergi Xidmətinin (FVX) və Federal Gömrük Xidmətinin (FGX) informasiya sistemlərinin yenilənməsi üçün tələb olunan xərclərin məbləği, ekspertlərin qiymətləndirməsinə əsasən, 200-300 milyon rubl (6-9 milyon manat) təşkil edir. Nazirlikdən verilən məlumata əsasən, FVX və FGX-yə öz informasiya sistemlərinin təkmilləşdirilməsi üçün tələb olunan məbləğin müəyyənləşdirilməsi və razılaşdırılması üzərində iş aparılır. Bu iki qurumun informasiya sistemlərinin eyni zamanda yenilənməsi üçün zəruri olan maliyyənin məbləği Kommunikasiya və Rabitə Nazirliyi ilə razılaşdırılmalıdır. «İzvestiya» bu barədə sorğu göndərsə də nazirlik, eləcə də FVX və FGX tərəfindən konkret rəqəm açıqlanmamışdır. Ekspretlər isə Rusiyada «tax free»nin tətbiqinin dəyəri ilə bağlı öz versiyalarını irəli sürmüşlər. Bu sahə üzrə ixtisaslaşmış «Sayt-soft» şirkətinin baş direktoru Anton Dobvnyanın bildirdiyinə görə, FVX və FGX öz informasiya sistemlərinə daxil etməli olacaqları yeni prosesləri nəzərə almalıdırlar. Məsələn, ƏDV-nin qaytarılması üzrə alıcılarla hesablaşma funksiyasını əhatə edən qeydiyyat operatorları əlavə edilməlidir. Bundan əlavə, qeyri-rezidentlər tərəfindən Rusiya ərazisində satın alınmış malların hərəkətinə dair uçot prosesinə də ehtiyac var.

# «Təmiz pul əməliyyatı»na start veriləcək

Hindistanın vergi xidməti «Təmiz pul əməliyyatı» adlı onlayn portalı istifadəyə vermişdir. Bu sayt bank depozitlərindən gələn gəlirlərini qeydiyyata aldırmadıqlarına görə potensial olaraq vergi qanunvericiliyinin tələblərini poza biləcək vergi ödəyicilərinə yardım məqsədi daşıyır.

Belə bir portalın yaradılması ideyası Hindistanın vergi xidmətinin banklarda hesabları olan, lakin verdikləri hesabatlar ilə real gəlirləri arasında ciddi fərq qeydə alınan təxminən 1,8 milyon vətəndaşın aşkar edilməsi nəticəsində ortaya atılmışdır. Hökumət rəsmiləri tərəfindən bildirilmişdir ki, məqsəd bütün potensial qanun pozucularına qarşı cərimə sanksiyaları tətbiq etmək deyil, əksinə, portalda yerləşdirilmiş informasiya vətəndaşlara öz vergi borclarını dəqiqləşdirməyə və onlara aid məlumatları könüllü şəkildə dövlət vergi xidmətinə təqdim etməyə yardımçı olacaq.

Vergi departamentinin nümayəndələri isə ədalətli vergi sistemi quruculuğu məqsədilə vətəndaşları portalın işinə, eləcə də bir-birlərinə yardım etməyə çağırmışdır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Azot turşusunun duzu; 2.Rus yazıçısı İvan Qonçarovun məşhur romanı; 3.Biri oksigen olmaqla iki elementdən ibarət olan mürəkkəb maddə; 4.Nigeriyanın cənub-qərbində şəhər; 5.Avstriya imperiyasının imperatoru. Müqəddəs Roma imperiyasını ləğv edib. Əvvəlcə Napoleonun düşməni, daha sonra isə qaynı olub; 6.Kiçikhəcmli mühərrik ilə təchiz olunan ikitəkərli nəqliyyat vasitəsi; 9.Rusiya parlamenti; 13.Çilidə çay; 15.Şabran rayonunda kənd; 16.Kimyəvi element (qaz); 17.Kiçik həcmli vokal əsəri. Azərbaycanda ən gözəl nümunələrini Üzeyir Hacıbəyli yaradıb; 18.Tropik meyvə; 20.Simləri üfüqi düzülmüş klavişli musiqi aləti; 21.İngiltərədə şəhər. **Soldan sağa:** 1.Dildə yeni əmələ gəlmiş söz və ya ifadə; 5.Azərbaycanda və Osmanlıda bir vaxtlar geniş yayılmış kişi baş geyimi. Adı Mərakeşin şəhərindən götürülmüşdür; 7.Bəzi xalqların inanclarına görə bədnəzərdən qoruyan, xoşbəxtlik və müvəffəqiyyət gətirən sehrli əşya (amulet); 8.İranın Qərbində qədim Azərbaycan şəhəri; 10.Gülçiçəyikimilər fəsiləsinə aid bitki cinsi (meyvə); 11.Latviyanın şimal-şərqində eyniadlı gölün sahilində yerləşən şəhər; 12.Türk mifologiyasında əjdaha, Türkiyədə populyar kişi adı; 14.Dekorasiya və ya istilik yaratmaq məqsədi ilə divara vurulan və ya döşəməyə salınan müxtəlif rəngli yun və ya iplik saplardan toxunmuş naxışlı əşya; 19.Aralıq dənizi hövzəsində cənub və cənub-şərq istiqamətində əsən güclü, isti külək; 21.Yaxın və Orta Şərq ədəbiyyatında əsərlərin əlifba sırasına əsasən düzüldüyü şeirlər məcmuəsi; 22.İspaniyada şəhər; 23.Düzəngah ərazi. Səfəvi və Osmanlı dövlətləri arasında 23 avqust 1514-cü ildə baş vermiş döyüş bu ərazinin adı ilə adlandırılır; 24.At, qatır və s. heyvanların dırnaqlarına sürüşməkdən və zədələnməkdən qorumaq üçün vurulan xüsusi formalı dəmir lövhəcik; 25.Ekslibris - Kitab və kitabxana sahibləri tərəfindən kitabın cildinin daxili tərəfinə yapışdırılan və ya basılan kitab nişanı, kağız etiket.



*Bəzi xalqların inanclarına görə bədnəzərdən qoruyan, xoşbəxtlik və müvəffəqiyyət gətirən sehrli əşya*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Nubiya; 2.Şabalıd; 3.Rəvan; 4.Vəsimə *(İsmayılqızı)*; 5.Sevda; 6.Dərviş; 9.Arpa; 13.Arta; 15.Taliban; 16.Skalli *(Şon)*; 17.Afrika; 18.Meteor; 20.Namiq *(Abdullayev)*; 21.Hobbi. **Soldan sağa:** 1.Nuşirəvan; 5.Süd; 7.Babuvist; 8.Avar; 10.Yalan; 11.Mariaçi; 12.Edqar *(Po)*; 14.Kasta; 19.Kenotaf; 21.Helme; 22.Lima; 23.Zimbabve; 24.İrq; 25.Stasionar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Qadın voleybolçularımız dünya çempionatının final mərhələsində!..

Bakı İdman Sarayında qadın voleybolçular arasında 2018-ci il dünya çempionatının seçmə mərhələsi çərçivəsində oyunlara yekun vurulub. «E» qrupunda mübarizə aparan Azərbaycan millisi İsveç, Ukrayna, Danimarka və İsrail komandalarına qalib gələrək, ən azı pley-off mərhələsində çıxış etmək hüququ qazanıb.

İyunun 3-də isə qrupun mərkəzi oyunu keçirilib. Azərbaycan və Hollandiya yığmaları dünya çempionatına birbaşa vəsiqə uğrunda sonuncu oyuna çıxıblar. Gərgin idman mübarizəsi şəraitində keçən matçdan Azərbaycan voleybolçuları qalib ayrılıblar. Komandamız hər üç setdə rəqibindən üstün olub - 30:28; 25:22; 25:13.



Bununla da qrup liderliyini ələ keçirən millimiz dünya çempionatının final mərhələsinə birbaşa vəsiqə qazanıb, Hollandiya təmsilçiləri isə play-offda mübarizə aparacaq. Maraqlıdır ki, beş görüşün hər birində Faiq Qarayevin yetirmələri rəqiblərini «quru» - 3:0 hesabı ilə məğlubiyyətə uğradıblar.

# "Barselona" Ardadan əl çəkmək fikrində deyil



Türkiyə millisinin və «Barselona» klubunun yarımmüdafiəçisi Arda Turanın meneceri Əhmət Bulud son günlər futbolçunun kataloniyalıların heyətindən ayrılacağı ilə bağlı mətbuatda gedən xəbərlərə münasibət bildirib. Ulduz futbolçunun «Barselona» klubu ilə 2020-ci il iyunun 30-dək müqaviləsinin olduğunu vurğulayan menecer deyib: «Arda Turan heç bir komandaya getməyəcək. «Barselona» klubunun rəhbərliyi də ondan məmnundur. Bizim heç bir komanda ilə görüşümüz olmayıb. Bu xəbərlər Ardanı və «Barselona» rəhbərliyini narahat edir. Arda Turan 2020-ci ilədək «Barselona»dadır».

# "Real Madrid" Avropanın ən güclüsüdür

## Kral klubu finalda Turinin "Yuventus" komandasını 4:1 hesabı ilə məğlub edib

*İyunun 3-də Madridin "Real" və Turinin "Yuventus" komandaları arasında keçirilən final qarşılaşması ilə UEFA Çempionlar Liqasının 2016-2017-ci il mövsümünə yekun vurulub. Olduqca maraqlı idman mübarizəsi şəraitində keçən oyunda 4:1 hesabı ilə qalib gələn "Real Madrid" komandası 12-ci dəfə Avropanın ən mötəbər turnirinin kubokunu başı üzərinə qaldırıb.*



Kardiff şəhərindəki Uels milli stadionunda keçirilən final qarşılaşmasının 20-ci dəqiqəsində madridlilərin portuqaliyalı ulduzu Kriştiano Ronaldu gözəl zərbə ilə hesabı açıb. Dünyasəviyyəli forvard bu qolla UEFA Çempionlar Liqasında üç final qarşılaşmasında qol vuran futbolçu kimi rekordları sırasına yenisini də əlavə edib. Bu qol «Real Madrid» üçün də əlamətdar olub - Kral klubu Çempionlar Liqasında 500 qol vuran ilk komanda kimi tarixə düşüb.

Qoldan sonra hər iki komanda daha açıq oynamağa başlayıb. Hesabı bərabərləşdirmək üçün irəli atılan turinlilər matçın 27-ci dəqiqəsində istəklərinə çatıblar. «Yuventus» futbolçularının gözəl kombinasiyasından sonra xorvatiyalı legioner Mario Mandzukiç «qayçı» zərbəsi ilə topu qapıçının başı üzərində tora göndərib - 1:1.

Fasilədən sonra oyunda üstünlüyü tamamilə ələ alan madridlilər dalbadal üç qol vuraraq matçın taleyini həll ediblər. «Real»ı yenidən hesabda irəli çıxaran Kasemirodan sonra Ronaldu qarşılaşmada dublunu rəsmiləşdirərək, cari mövsümdə UEFA Çempionlar Liqasında Lionel Messini qabaqlayaraq ən çox qol vuran oyunçu olub - 12 top. Matçın 90-cı dəqiqəsində «Real»ın gənc futbolçusu Marko Asensio dəqiq zərbə ilə Buffonu növbəti dəfə məyus edib - 4:1.

Bununla da Zinəddin Zidanın yetirmələri UEFA Çempionlar Liqasında ardıcıl iki dəfə çempion olub. «Yuventus» isə Çempionlar Liqasının finalında ən çox məğlub olan komanda ünvanını özündə saxlayıb. Belə ki, bu, turinlilərin finallarda yeddinci məğlubiyyətidir.

mozaika

incəsənət

# Kann kinofestivalının baş mükafatını «Kvadrat» aldı

Dünyanın maraqla izlədiyi mədəniyyət hadisələrindən biri də hər il may ayının sonunda Fransanın Kann şəhərində keçirilən beynəlxalq kino festivalıdır. Bu il 70-ci dəfə keçirilmiş festivalın əsas müsabiqəsində 19 film iştirak edirdi. Tədbirin açılış və bağlanış mərasimlərinin aparıcısı məşhur italiyalı kinoaktrisa Monika Belluçi idi.



Münsiflər heyətinə ispaniyalı kinorejissor Pedro Almodovarın sədrlik etdiyi 70-ci Kann kino festivalının əsas prizinə - «Qızıl palma budağı» mükafatına İsveç rejissoru Ruben Estlundun «Kvadrat» filmi layiq görüldü.

Filmin baş qəhrəmanı - arvadından ayrılmış muzey baxıcısı təkbaşına iki qızını böyüdür. O, həyatda «düzgün adam» olmağa çalışır, elektromobil sürür, humanitar layihələri dəstəkləyir. Lakin bir dəfə onun mobil telefonunu oğurlayırlar və bununla da qəhrəmanın həyatını büsbütün dəyişən gözlənilməz hadisələr zənciri işə düşür.

Fransız rejissor Roben Kampiyonun QİCS-ə yoluxmuş xəstələrin problemlərinə cəmiyyətin biganə münasibəti ilə mübarizə aparan fəallardan bəhs edən «Dəqiqədə 120 zərbə» filmi isə festivalın Qran-pri mükafatına layiq görüldü.

fauna

# Siqaret qoxusunu sevməyən... bitki

Ekzotik bitki sayılan laşenaliya ilə ilk tanışlıq 1686-cı ildə Afrikanın Kap vilayətinin qubernatorunun jurnalında dərc olunan akvarel rəsmi ilə başlanılıb. Avstriyalı botanika professoru Yozef Frans fon Jaken 1784-cü ildə onun adını isveçrəli botanik Verner de Laxealın şərəfinə verib.

Laşenaliya vaxtilə yabanı halda yalnız Afrikada bitirdi. İndi onun 100-dən artıq növü digər ərazilərdə də geniş yayılıb. Bitkinin yarpaqları parıltılı və ləkəlidir. Hər bitkidə 10-a qədər yarpaq və 10-dan 40-a qədər çiçək olur. Ev şəraitində laşenaliyanın əsasən aloyebənzər növü yetişdirilir. Həmin növün uzunluğu 20 santimetrə qədər olan tünd-yaşıl rəngli uzunsov yarpaqları var. Onun sortlarını yarpaqlarının rənginə görə ayırd edirlər: Arlekin sortunun gülləri tünd-çəhrayı, Naida sortunun çiçəkləri sarı ləkəli ağ rəngdə, Ro sortunun gülləri isə narıncı çalarlıdır.

Laşenaliya çox həssas otaq bitkisidir, hətta onun olduğu otaqda siqaret çəkiləndə dərhal hava dəyişilməlidir, düzgün qulluq ediləndə avqustun axırından yazın ortalarına qədər çiçək açır. İşıqsevən bitkidir, lakin yayılmış işığı daha çox sevir, həddən artıq şor və duzlu torpaqları sevmir. Onu həm soğanaq, həm də toxumla çoxaltmaq olur. Soğanaq eni təxminən 15 santimetr olan drenaj edilmiş dibçəkdə 1,5-2 santimetr dərinliyə əkilir, artıq ikinci il çiçəkləməyə başlayır. Toxumla çoxalma isə bitkinin üçüncü ili aparılır.



cəmiyyət

# Köklük reytinqində öndə olanlar

Dünya əhalisinin yetkin insanlarının 19,5 faizi köklükdən əziyyət çəkir. Bu fakt İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının yeni məlumatında əksini tapıb.

Köklük cəhətdən dünyanın ən problemli ölkəsi ABŞ sayılır. Burada 15 yaşından yuxarı əhalinin 38,2 faizində piylənmə diaqnozu qeydə alınıb. Analitiklərin proqnozuna görə, 2030-cu ilə qədər bu göstərici 47 faizə çatacaq.

Reytinqin ikinci pilləsində vətəndaşlarının 32,4 faizinin artıq çəkidən əziyyət çəkdiyi Meksika qərarlaşıb. Siyahıda sonrakı yerləri Yeni Zelandiya, Macarıstan, Avstraliya və Böyük Britaniya tutur.

Çəki göstəricisinə görə ən sağlam ölkə Yaponiyadır. Burada yetkin insanların cəmi 3,7 faizi piylənmə ilə üzləşib.

sağlam qida

# Gözəl qamətin mənbəyi

Maytake göbələyi dünyanın ən qiymətli və bahalı göbələklərindən biri hesab edilir. Orta əsrlərdə Çində onun çəkisinin qiyməti gümüşün qiymətinə bərabər tutulurdu. Hətta onun bitdiyi yeri gizlədər, vəsiyyət edərək nəsildən-nəslə ötürərdilər. Göbələyin diametri yarım metrə, çəkisi 4 kiloqrama çatır.

Maytakeni «rəqs edən göbələk» adlandırırdılar. Bəzi mənbələrə görə, onu dərməzdən əvvəl müəyyən rəqs ritualları icra edilməli idi. Deyilənə görə, bunu etməyəndə maytake öz müalicəvi xüsusiyyətlərini itirə bilərdi. Digər mənbəyə görə, feodalizm dövründə kasıblar həmin göbələyi tapanda sevinərək rəqs edərmişlər.



Yapon alimi Takişi Midano 1195-ci ilə aid əlyazmalarında maytake göbələyi haqqında məlumat verərək eramızdan əvvəl 206-cı ildə Çin imperatorlarının müalicəsində ondan dərman kimi istifadə edildiyi göstərib. Maytake yabanı halda Yaponiya meşələrində və Çinin bəzi rayonlarında bitir. Keçən əsrin 80-ci illərindən həmin göbələyi meyvə ağaclarında yetişdirirlər.

Gündoğar ölkədə maytakeni gözəl qamət göbələyi hesab edirlər və yerli əhalinin inamına görə, yapon xanımlar məhz onun sayəsində füsunkar qamətə sahib olurlar. Maytakenin güclü ətri və dadı var. Şərq kulinariyasında onu digər oxşar göbələklərlə birlikdə istifadə edir və ondan şorba, sous, ədviyyat, salat, içki və ekstratlar hazırlayırlar. Yaponiyada məşhur miso şorbasının əsas komponenti maytake göbələyidir. Göbələyi ocağın üstündə 5-8 dəqiqədən çox bişirmək olmaz, çünki o, öz effektiv təsirini itirir. Koreyada isə onu ya buxarda bişirir, ya da sadəcə olaraq qızardırlar.

Maytakenin tərkibindəki beta-qlükanlardan ən güclüsü qrifolan hesab edilir və onun xərçəng hüceyrələrinə çox güclü təsir edən yeddi göbələkdən biri olduğu məlumdur. Onun adı beş ölkənin rəsmi dərman siyahısına daxil edilib.

Göbələyin spesifik xüsusiyyəti var və əsasən süd vəzi, uşaqlıq, yumurtalıq, prostat vəzi, sidik kisəsi xəstəliklərində və bağırsaq xərçəngi əleyhinə daha yaxşı təsir göstərir. Şüa terapiyası və törəmələrə cərrahi müdaxilədən sonra maytake göbələyi ilə az vaxtda bərpa prosesini təmin etmək olur. Kimyəvi terapiya ilə yanaşı göbələkdən istifadə müalicə prosedurunun səmərəsini artırır və onun bütün təsirləri elmi araşdırmalarda təsdiq olunub.

ekologiya

# Tunc dövrü abidələri öyrəniləcək

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda Lorenzo de` Medici Beynəlxalq İtaliya İnstitutunun dini tədqiqatlar departamentinin rəhbəri, professor Nikola Laneri və «Qədim Aralıq dənizi hövzəsi və Yaxın Şərq tədqiqatları Mərkəzinin» (COMNES) əməkdaşı, doktor Stefano Valentini ilə görüş olub. Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, professor Maisə Rəhimova qonaqlara Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin arxeologiya elminə göstərdiyi diqqət nəticəsində abidələrin aşkarlanması, tədqiqi və qorunması sahəsində əldə edilmiş uğurlar, beynəlxalq tərkibli arxeoloji ekspedisiyalar, Avropa, Amerika və Asiyanın qabaqcıl elm mərkəzləri ilə elmi əməkdaşlıq barədə məlumat verib.

Qonaqlar respublikamızın ərazisində tunc dövrü abidələrinin bəşər tarixinin öyrənilməsi üçün ölçüyə gəlməz önəmini, Azərbaycan arxeoloqlarının tədqiqatları və elmə verdikləri töhfələrdən məlumatlı olduqlarını qeyd ediblər. Uzun müddət İtaliyada, Türkiyədə tədqiqatlar aparmış professor Nikola Laneri və İraq ərazisində arxeoloji ekspedisiyalarda iştirak etmiş doktor Stefano Valentini Azərbaycanın bir sıra qərb rayonlarında tunc dövrü üzrə dəfn abidələri ilə tanış olmaq və yaxın gələcəkdə tunc dövrü abidələrinin arxeoloji tədqiqatlarında iştirak etmək niyyətlərini açıqlayıblar.

Yaxın gələcəkdə Arxeologiya və Etnoqrafiya İnstitutuilə Lorenzode` Medici Beynəlxalq İtaliya İnstitutu arasında qarşılıqlı əməkdaşlıq üzrə memorandumun hazırlanması barədə razılıq əldə olunub.

**Müdriklər deyib ki...**

***«İki şey insanın həyatını qaraldır: susmaq lazım gələndə danışmaq, danışmaq lazım gələndə isə susmaq».***

***Sədi Şirazi***

